RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 189 (8782) ÇƏRŞƏNBƏ AXŞAMI, 7 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Havadan Zəfər yolu

## İlham Əliyevin 9 ay öncə təməlini qoyduğu Füzuli Hava Limanına ilk "Qarabağ" təyyarəsi eniş etdi

Tarix 17 oktyabr 2020-ci il. Müzəffər Azərbaycan Ordusunun ayaq səsləri Füzulidə eşidilir. Düşmən üzərinə qartal kimi şığıyan igidlərimiz 27 ildən sonra şəhərdə bayrağımızı ucaldırlar. Müharibədən cəmi 9 ay sonra isə Füzulidə "Qarabağ" sərnişin təyyarəsinin səsi eşidilir. Sentyabrın 5-də Bakıdan havaya qalxan "Airbus A340-500" tipli sərnişin təyyarəsi 35 dəqiqə sonra Qarabağın yeni inşa olunmuş ilk hava limanında eniş edir.

Bu, həqiqətən qürurvericidir, fəxarətdir. Bu, Azərbaycanın siyasi-hərbi və iqtisadi qüdrətinin göstəricisidir. Bəlkə də dünyanın heç bir yerində belə qısa müddətdə hava limanı inşa edilməyib. Tarixin qeyri-adi dönüşünün nəticəsidir ki, 9 ay əvvəl Füzuli Hava Limanının tikildiyi ərazi Azərbaycan igidlərinin döyüş meydanı olduğu halda, bu gün həmin cəsur oğullarımızın sayəsində həmin ərazi Qarabağın hava qapısına çevrilib.

Prezident İlham Əliyev yanvarın 14-də hava limanının təməlini qoyanda demişdi ki, bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.

Bakı-Füzuli marşrutu üzrə sərnişin təyyarəsi ilə uçuş müddəti cəmi 35 dəqiqədir. Hava limanı 1 saatda 200 sərnişinə xidmət edə biləcək.

Hava limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Burada Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) bütün tələblərinə uyğun olaraq uçuşların təhlükəsizliyini təmin etmək üçün instrumental enmə və naviqasiya sistemləri, işıqtexniki, ilkin və ikinci radiolakasiya sistemləri quraşdırılıb. Bu, hava limanına istənilən tip təyyarələrin qəbul edilməsinə imkan verəcək.

Avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi başa çatıb. Bunun sayəsində Füzuli Hava Limanına ICAO və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaq. Gələcək aerovağzal kompleksinin elektrik enerjisi ilə təmin edilməsi üçün nəzərdə tutulan əsas transformator yarımstansiyaları və elektrik ötürücü xətləri də hazırdır. Qazanxana və digər köməkçi binaların tikintisi başa çatıb.

Sentyabrın sonunda istifadəyə verilməsi planlaşdırılan sərnişin terminalının qarşısında 150 avtomobil üçün nəzərdə tutulan dayanacaq inşa edilib.

Hava limanını "Zəfər yolu" və Şuşa şəhərinə aparan magistral yol ilə birləşdirən avtomobil yolunun tikintisi davam etdirilir. Ərazidə yaşıllaşdırma işləri də aparılır.

Azərbaycan Prezidentinin də söylədiyi kimi, Füzuli Hava Limanı işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin cəlb olunması üçün olduqca faydalıdır və yeni imkanlar yaradacaq. Çünki hazırda Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur. Həmin turistlərin daha sərfəli və qısa yolla, praktik olaraq birbaşa işğaldan azad olunan ərazilərimizə səfər edə bilməsi üçün Füzuli Hava Limanı əlverişli imkan yaradacaq. Bu amil işğaldan azad edilmiş ərazilərimizə, eləcə də Füzuli rayonuna gələcək turistlərin sayına müsbət təsir göstərəcək və daha çox turistin ölkəmizə gəlməsinə imkan verəcək. Yəni, aeroport regionda turizmin canlanması üçün yeni imkanlar yaradacaq.

Əlavə edək ki, sentyabrın 5-də Azərbaycanın "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan "Boeing 747-400" tipli hava gəmisi də Füzuli Hava Limanına eniş etmişdi. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb. Bu onu göstərir ki, hava limanı həm də yükdaşımalar, xüsusən beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılan hava limanı həm də Qarabağda istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından olduqca vacibdir.

Lakin Füzuli Hava Limanının inşası işğaldan azad edilmiş ərazilərimizdə müasir kommunikasiyaların qurulması sahəsində həyata keçirilən, iqtisadi, strateji baxımdan dəyərli olan yeganə layihə deyil. Zəngilan və Laçında da tikilən hava limanları Azərbaycanın tarixi torpaqlarına böyük qayıdış üçün vacib sayılan çox mühüm strateji layihələrdir.

İqtisadçı ekspertlər də hesab edirlər ki, Füzulidə, Laçında və Zəngilanda aeropotların olması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının regionun aparıcı mərkəzlərinə çevrilə bilməsinə imkan yaradacaq. Şərqi Zəngəzurda aeroportun tikilməsi buranın nəqliyyat habına çevrildiyini göstərir. Əgər gələcəkdə düzgün marketinq qurularsa, Füzuli aeroportunun əhəmiyyəti daha da artacaq.

İşğaldan azad edilmiş ərazilərimizdə aeroportların tikilməsi xarici iş adamlarının bu bölgəyə investisiya yatırmasına imkan yaradır.

***"Azərbaycan"***

## Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının əlilliyi olan idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə **qərara alıram:**

1. Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında əldə etdikləri ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min), onun məşqçisinə 100 000 (yüz min) manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min), onun məşqçisinə 50 000 (əlli min) manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min), onun məşqçisinə 25 000 (iyirmi beş min) manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2021-ci il*

## Azərbaycan Milli Paralimpiya Komitəsinin rəhbərliyinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan Milli Paralimpiya Komitəsinin aşağıda adları çəkilən rəhbər şəxsləri təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**
Rəhimov İlqar Elxan oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Məmmədov Kamal Cabir oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2021-ci il*

## Şuşanın yeni baharı payızda gəldi

Gözünüz önünə Qənimətlər muzeyindəki erməni hərbi texnikalarının nömrələrindən yığılmış böyük lövhəni gətirin. Sonra da onu təsəvvürünüzdə ekrana çevirin, həmin nömrələrin əvəzində isə monitorları düzün və xəyalən onları Azərbaycan-Ermənistan sərhədi boyu uçan PUA-lara bağlayıb diqqətlə hər iki tərəfin görüntülərini seyr edin və müqayisələndirin. Heyrətamiz fərqlərlə qarşılaşacaqsınız, gördüklərinizə təəccüblənəcəksiniz...

Təəccüblənəcəksiniz ona görə ki, Ermənistanın məhv edilmiş və ruhən dağıdılmış ordusunun əsgərləri yenə də hücum imitasiyası edir, əzələ və güc nümayiş etdirməyə çalışır, təxribatlar törədirlər. Qarabağda isə bu ordunun qalıqları qəyyumları tərəfindən təlimlərə çəkilir, yenə səngərlər qazılır, müdafiə sədləri qurulur. Bununla erməni millətçiləri faciəvi məğlubiyyətdən sonra yenə müharibənin kölgəsində sürünməyə üstünlük verdiklərini ortaya qoyurlar, ziddiyyətlərin, qarşılıqlı ittihamların və faşist ambisiyalarının məngənəsində can verirlər.

*Ardı 4-cü səh.*

## Paralimpiyaçılarımızın möhtəşəm qələbəsi

### Azərbaycan medalların sayına görə ilk 10-luqda yer aldı

Azərbaycan paralimpiyaçıları Yaponiyanın paytaxtı Tokioda keçirilmiş XVI Paralimpiya Oyunlarını möhtəşəm qələbə ilə başa vurdular. Yığmamız gərgin keçən yarışlarda 19 medal qazanaraq medal almış 84 ölkə sırasında 10-cu oldu. Onlardan 14-ü qızıl, 1-i gümüş, 4-ü isə bürünc medaldır. Bu, tarixi rekorddur.

*Bax: səh. 6*

**Medal cədvəli**

| Yer | Ölkə | Q | G | B | C |
|---|---|---|---|---|---|
| 1. | Çin Xalq Respublikası | 96 | 60 | 51 | 207 |
| 2. | Böyük Britaniya | 41 | 38 | 45 | 124 |
| 3. | ABŞ | 37 | 36 | 31 | 104 |
| 4. | RPK | 36 | 33 | 49 | 118 |
| 5. | Niderland | 25 | 17 | 17 | 59 |
| 6. | Ukrayna | 24 | 47 | 27 | 98 |
| 7. | Brazil | 22 | 20 | 30 | 72 |
| 8. | Avstraliya | 21 | 29 | 30 | 80 |
| 9. | İtaliya | 14 | 29 | 26 | 69 |
| 10. | Azərbaycan | 14 | 1 | 4 | 19 |
| 11. | Yaponiya | 13 | 15 | 23 | 51 |
| 12. | Almaniya | 13 | 12 | 18 | 43 |
| 13. | İran | 12 | 11 | 1 | 24 |
| 14. | Fransa | 11 | 15 | 28 | 54 |
| 15. | İspaniya | 9 | 15 | 12 | 36 |

**Cəmi: 86 ölkə**

◆ **Jurnalist araşdırması**

## Tibdə biganəlik və məsuliyyətsizlik ölümlə nəticələnə bilir

### Səhiyyə Nazirliyi və TƏBİB pandemiya sınağından hələ ki uğurla çıxa bilmir

"Hər yerdə hər bir dövlət məmuru, icra başçısı, bələdiyyə sədri, hər bir dövlət təşkilatında çalışan məmur vətəndaşlara xidmət etməlidir. Mən bunu dəfələrlə demişəm. Əfsuslar olsun ki, hər yerdə belə deyil, elə hallar var ki, vətəndaşları incidirlər, onların haqları tapdalanır, onların problemlərinə biganə yanaşılır. Hər bir dövlət məmuru bilməlidir ki, onun başlıca vəzifəsi vətəndaşlara xidmət etməkdir və mənim də tələbim bundan ibarətdir".



Prezident İlham Əliyevin bu fikirləri ölkə rəhbərinin fəaliyyət prioritetlərini göstərməklə yanaşı, həm də dövlət məmurlarından əsas tələbini, onlar üçün müəyyənləşdirdiyi vəzifə öhdəliklərini nümayiş etdirir. Vətəndaşların dövlət xidmətlərindən məmnunluğu hər zaman Prezident üçün vacib məsələdir və bu şərt də dövlət qurumlarının fəaliyyətində əsasən ödənilir.

Lakin COVID pandemiyası başlayandan qarşılaşdığımız problemlər onu deməyə əsas verir ki, bəzi məmurlar vətəndaşa Prezident İlham Əliyevin tələb etdiyi səviyyədə qayğıkeşlik, diqqət və məsuliyyətlə yanaşmırlar. Yoxsa insan sağlamlığı ilə bağlı məsələlərin daha həssas olduğu indiki pandemiya dövründə bu yazıda qeyd edəcəyimiz neqativlər ortaya çıxmazdı.

*Ardı 5-ci səh.*



# Regionun ən işıqlı ölkəsi - Azərbaycan

Azərbaycanda həyata keçirilən sənayeləşmə prosesi, əhalinin artım tempi, sosial infrastrukturun genişlənməsi, insanların yaşayış səviyyəsinin yüksəlməsi elektroenergetika sektorunun daim inkişaf etdirilməsi vəzifəsini qarşıya qoyur. Uzun illərdir işğal altında olan torpaqlarımızın azad edilməsindən sonra elektrik enerjisinə tələbatın çoxalması bu sistemdə aparılan tikinti və yenidənqurma işlərinin daha da sürətləndirilməsini şərtləndirir.

Təzadüfi deyil ki, son illər Azərbaycanda enerjisistemin maddi-texniki bazasının möhkəmləndirilməsi, ölkəmizin enerji potensialının daha da artırılması, yeni elektrik stansiyaları və yarımstansiyaların inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində çox mühüm layihələr icra olunub. Elə son il yarımda ölkədə neçə-neçə yeni generasiya gücləri yaradılıb. İstifadəyə verilən stansiya və yarımstansiyaların əksəriyyətinin açılışında Prezident İlham Əliyevin iştirak etməsi diqqəti bir daha bu hadisələrin önəmli olduğuna yönəldir.

Bu il sentyabrın 3-də Enerjisistemin Reabilitasiya Proqramı çərçivəsində inşa edilən "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışı sözügedən tədbirlərin davamlı olduğunun daha bir təsdiqidir. Prezident İlham Əliyev ənənəsinə sadiq qalaraq bu enerji obyektinin də açılışında iştirak edib.

Dövlət başçısının tapşırığına əsasən, 2018-ci ilin sonundan Enerjisistemin Reabilitasiya Proqramının qəbul edilərək icrasına başlanılması xüsusi əhəmiyyəti ilə seçilən tədbirdir. Əgər bu proqramın icrasına vaxtında başlanmasa və təcili işlər görülməsəydi, 2019-cu və 2020-ci illərin yayında artan tələbatın, həmçinin Kür və Xəzərdə su səviyyəsinin kəskin aşağı düşməsinin fonunda enerjisistemdə problemlər yarana bilərdi. Odur ki, proqram çərçivəsində indiyədək 12 elektrik stansiyasında və 23 yarımstansiyada yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib.

Son illər Xəzər dənizində suyun səviyyəsinin 1,7 metrə qədər aşağı düşməsi "Sumqayıt" Elektrik Stansiyasının soyutma suyunun götürülməsində ciddi problem yaratmaqla yanaşı, stansiyanın avadanlıqlarının da tədricən sıradan çıxmasına səbəb olmuşdu. Yaranmış vəziyyətlə, xüsusilə dənizdə su səviyyəsinin düşməsi ilə əlaqədar il ərzində bir neçə dəfə gərgin vəziyyət yaranmışdı.

Reabilitasiya Proqramı nəticəsində "Sumqayıt" Elektrik Stansiyasında əsas avadanlıqlar, generatorlar və digər qurğular əsaslı təmir edilib. Mövcud su nasos stansiyası əsaslı şəkildə yenidən qurulub. Aparılan yenidənqurma və əsaslı təmir işləri indi stansiyanın etibarlı və səmərəli fəaliyyətinə təminat verir. Eləcə də elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın həcminin azalması nəticəsində ildə 10 min ton yanacağa qənaət ediləcək. Əsaslı təmir stansiyanın yük artımını 20 meqavat çoxaldıb.

Açılış mərasimində iştirak edən dövlət başçısına məlumat verilib ki, Xəzər dənizində suyun səviyyəsinin düşmə prosesinin hələ də davam etməsi və stansiyanın avadanlıqlarının uzunmüddətli istismarı nəzərə alınmaqla, dayanıqlı və etibarlı iş rejiminə nail olmaq məqsədilə təxirəsalınmaz irimiqyaslı işlərə başlanılıb. Belə ki, dənizin içərisinə doğru, 5 metr dərinlikdən soyuq suyun götürülməsinə imkan verən 750 metr məsafədə estakada, həmçinin yeni su nasos stansiyası tikilib. Bununla da stansiyanın soyuducu su təchizatının etibarlılığı təmin edilib və ən əsası, stansiyanın fəaliyyətinin dayanmasının qarşısı alınıb. Qeyd edilib ki, yeni estakada üzərində tikilən və elektrik stansiyasını xüsusi üsulla soyuq su ilə təmin edən yeni nasosxana istilik energetikası sahəsində ilk təcrübə sayılır.

Görülən işlər bir daha sübut edir ki, ölkənin enerji sisteminin fəaliyyəti Prezidentin daimi diqqət mərkəzindədir. Keçən il əsaslı yenidənqurmadan sonra "Azərbaycan" İstilik Elektrik Stansiyasının istifadəyə verilməsini xatırlayaq. Stansiya qısa müddətdə tamamilə yenidən qurulmuş, 8 blokun hamısı işlək vəziyyətə gətirilmişdir. Obyektin 2400 meqavat generasiya gücü bərpa edilmişdir. Qəza baş verən yarımstansiyalar yenidən tikilmiş, müasir idarəetmə mərkəzi yaradılmışdır. Beləliklə, stansiyanın ömrü ən azı 20-30 il, bəlkə də 50 il uzadılmışdır. Hazırda bu stansiya ölkənin elektrik enerjisinə olan tələbatının 40 faizini ödəyir. Burada istehsal edilən elektrik enerjisi respublikanın enerji sisteminə 330 və 500 kilovoltluq elektrik verilişi xətləri ilə ötürülür.

Mingəçevir şəhərində yenidən qurulmuş "Azərbaycan" İES-in açılış mərasimində Prezident İlham Əliyev demişdir: "Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir, əsas motorudur. Bu olmasa, heç nə olan deyil. Bu olmasa, heç bir inkişafdan, heç bir investisiya qoyuluşundan söhbət gedə bilməz. Ona görə enerji olmayan yerdə inkişaf yoxdur".

Dövlət başçısının bir il əvvəl təməlini qoyduğu 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının da tikintisi davam edir. Bu stansiya Ələt qəsəbəsi yaxınlığındakı "Azad İqtisadi Zona"nın, eləcə də yaxın illərdə ölkədə fəaliyyətə başlayacaq bir sıra qeyri-neft sənayesi obyektlərinin etibarlı elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaq. Qeyd edək ki, "Qobu" layihəsinə dünyanın məşhur şirkətləri yüksək rəy verməklə yanaşı, onun tikintisində yaxından iştirak edirlər.

"Qobu" enerji layihəsi, o cümlədən "Qobu" Elektrik Stansiyasının tikintisi ölkənin enerji sistemində bir mənbədən asılılığı aradan qaldırmaq, Bakı şəhərinin, ümumilikdə Abşeron yarımadasının elektrik enerjisi ilə təchizatının dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdırmağa hesablanıb.

Təməlqoyma mərasimində Prezident İlham Əliyev əmin olduğunu bildirmişdir ki, stansiya uğurla tikiləcək və nəzərdə tutulmuş vaxtda - 2022-ci ilin əvvəlində tam istifadəyə veriləcək, ölkəmizdəki böyük stansiyalar arasında öz yerini tapacaq.

1990-cı illərdə xaricdən elektrik enerjisi alan Azərbaycan bu gün onu 3 ölkəyə ixrac edir. Azərbaycan bundan sonra da enerji təminatı sahəsində heç kimdən asılı olmayacağını bəyan edib. Bu məsələdə bərpaolunan enerji növləri də öz töhfəsini verəcək. Həmin istiqamətdə böyük planlar var və genişmiqyaslı işlər görülür. Çünki energetiklərin də təsdiqlədiyi kimi, bərpaolunan enerji növlərinin inkişafı ənənəvi enerji növlərinin inkişafı ilə bilavasitə bağlıdır. Sevindirici haldir ki, bu gün dünyanın ən böyük enerji şirkətləri Azərbaycanda bərpaolunan enerji növlərinin istehsalına maraq göstərir və artıq bu maraq reallaşır.

Məlumdur ki, bütün dünyada bərpaolunan enerjidən istifadə getdikcə özünə daha geniş yer alır. Azərbaycanda da bu məsələyə xüsusi diqqət yetirilməsi təsadüfi deyil. Çünki bərpaolunan enerji sahəsinin inkişafı üçün ölkəmizdə əlverişli şərait mövcuddur. Bu növ enerjinin yaradılmasının əsas mənbəyi günəş və küləkdir, Azərbaycan isə dünyada məhz günəşli ölkə kimi tanınır. Coşqun Xəzərin sahilində və dağlar qoynunda yerləşən ərazilərimizdə külək enerjisindən istifadə üçün də geniş imkan var. Bu səbəblərdən Azərbaycanın bir sıra bölgələrində bərpaolunan enerji stansiyalarının tikilməsi gündəmə gəlir.

Bu il aprelin 2-də Prezident İlham Əliyev "Qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncam imzalayıb. Bu, Azərbaycanı "yaşıl enerji" məkanına çevirmək istiqamətində atılan növbəti mühüm addımdır. Ona görə ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ən ümdə istiqamətlərdən biri kimi enerjidən istifadənin genişləndirilməsi müəyyən edilib.

Prezident İlham Əliyev həmin vaxta qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasının hədəf kimi götürüldüyünü bildirib. Azərbaycanda Səudiyyə Ərəbistanı Krallığının "ACWA POWER" şirkəti ilə külək və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə günəş elektrik stansiyasının tikintisinin reallaşması bu istiqamətdə önəmli addım olacaq.

Eyni zamanda Qarabağ "yaşıl enerji" zonasına çevrilir. Əslində, bu regionda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl zona", yaxud "yaşıl məkan" konsepsiyasının hazırlanmasına hələ Vətən müharibəsindəki şanlı qələbəmizdən az sonra başlanmışdır. Bu il mayın 3-də isə Prezident "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Dövlət başçısı bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara almışdır.

Bütün bunların nəticəsində Qarabağ bölgəsi "yaşıl enerji" zonası kimi dünya üçün bir nümunə olacaq. Məlum olduğu kimi, Qarabağın bərpaolunan enerji istehsalı üçün potensialı böyükdür. Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi - Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Ərazidə ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması həyata keçiriləcək.

Qarabağda eləcə də külək enerjisi istehsal etmək mümkün olacaq. Belə ki, regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialı hesablanacaq.

Bütün bunlardan başqa, Kəlbəcərdə və Şuşada termal su ehtiyatları var. Qarşıda dayanan vəzifələrdən biri də termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir.

Bir sözlə, ölkənin elektrik enerjisi sistemində görülən ardıcıl və çoxşaxəli işlər yurdumuzun hər guşəsini daha çıraqban edir. Nə xoş ki, işğaldan azad edilmiş bölgələrimizin də işığı gündən-günə artır. Şuşada 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyası istifadəyə verildi, şəhərin nurunu, işığını daha da artırdı. Şuşa, eləcə də energetika qurğularının tikintisi sahəsində yeni bir rekorda şahidlik etdi. Belə ki, Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə iki ay yarımdan da az bir müddətdə icra olundu. Bu isə yalnız Azərbaycan energetikasında deyil, bütün regionun energetika tarixində bir rekorddur. Belə rekordlarımız hələ çox olacaq!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## F.Ş.Əliyevanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Fərəh Şirməmməd qızı Əliyeva "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2021-ci il*

## S.R.Şərifovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında maliyyə sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Samir Rauf oğlu Şərifov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2021-ci il*

## Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Astanov Elvin Əmrah oğlu
Heydari Hamed Moharramali oğlu
Salei Raman Sergeyeviç

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Aslanov Orxan Əlövsət oğlu
Hacıyeva Şəhanə İbadət qızı
Hüseynova Xanım Akif qızı
İsrafilov Vəli Rəşadət oğlu
Kərimova Dürsədəf Muxtar qızı
Rəhimli Hüseyn Natiq oğlu
Şirinli Vüqar Tofiq oğlu
Vəliyeva Lamiyə Rövşən qızı
Vəliyeva Sevda Rasim qızı
Zəkiyev İlham Əzizağa oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Abaslı Namiq Zülfüqar oğlu
Məmmədov Pərvin Rasim oğlu
Nəcəfzadə Səid Əli oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Culfayev Alavərdi Abasoviç
Məmmədov Rəşad Nizami oğlu
Zayets Vladimir Vladimiroviç

**"Tərəqqi" medalı ilə**

Ağakişiyev Fərid İbili oğlu
Əliyev Elvin Adil oğlu
Əliyev Elvin Elman oğlu
Əliyev Rəşad Rauf oğlu
Əliyev Tofiq Zöhrab oğlu
İbrahimov İbrahim Eldar oğlu
Məmmədov Rasim Məmməd oğlu
Məmmədov İmamverdi Ağaverdi oğlu
Nağıyev Mehdi Əli oğlu
Panyutin Oleq Viktoroviç
Zahidov Azad Zakir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2021-ci il*

## Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan idmançılarının aşağıda adları çəkilən məşqçiləri "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

İbişov İlqar Əsgər oğlu
İbrahimov Ramin İbrahim oğlu
Kirillov Fyodor Borisoviç.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2021-ci il*

## Ağdaş, Ağsu, İsmayıllı, Qəbələ, Qobustan, Oğuz və Şamaxı rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağdaş, Ağsu, İsmayıllı, Qəbələ, Qobustan, Oğuz və Şamaxı rayonlarının əhalisi 38016 nəfər olan 20 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2021-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 sentyabr tarixli Sərəncamına Əlavə*

## Ağdaş, Ağsu, İsmayıllı, Qəbələ, Qobustan, Oğuz və Şamaxı rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Ağdaş | 1 | Xınaxlı kəndi | 592 |
| 2. | Ağsu | 1 | Axundlu kəndi | 234 |
| 3. | İsmayıllı | 5 | Çərmədil kəndi | 85 |
| | | | Qarakolluq kəndi | 253 |
| | | | Qoşakənd kəndi | 676 |
| | | | Uştal kəndi | 529 |
| | | | Vəng kəndi | 436 |
| 4. | Qəbələ | 4 | Böyük Əmili kəndi | 1365 |
| | | | Həzrə kəndi | 455 |
| | | | İmamlı kəndi | 518 |
| | | | Nohurqışlaq kəndi | 3554 |
| 5. | Qobustan | 2 | Ərəbşalbaş kəndi | 4925 |
| | | | Qobustan şəhəri | 9407 |
| 6. | Oğuz | 5 | Calut kəndi | 1058 |
| | | | Muxas kəndi | 1263 |
| | | | Oğuz şəhəri | 7511 |
| | | | Padar kəndi | 2563 |
| | | | Sincan kəndi | 1682 |
| 7. | Şamaxı | 2 | Hacılı kəndi | 427 |
| | | | Şirvan kəndi | 483 |
| Cəmi: | | 20 | 20 | 38 016 |

# Milli Məclisin Sədri Vyanada Qadın Parlament Sədrlərinin 13-cü Sammitində çıxış edib




Sentyabrın 6-da Milli Məclisin Sədri Sahibə Qafarova Vyanada Parlamentlərarası İttifaqın təşkilatçılığı ilə keçirilən Qadın Parlament Sədrlərinin 13-cü Sammitində çıxış edib.



AZƏRTAC xəbər verir ki, Sahibə Qafarova pandemiya və postpandemiya dövrlərində qadınlara diqqət yetirməyin onların daha yaxşı və daha təhlükəsiz dünyaya verdikləri əhəmiyyətli töhfənin tanınması anlamına gəldiyini bildirib. Bu gün cəmiyyətlərimizin əsas hissəsini təşkil edən qadınlar qlobal pandemiyaya qarşı mübarizədə əhəmiyyətli rol oynamağa davam edirlər. O bildirib ki, bu gün nailiyyətlərimizi qoruyub saxlamaq və postpandemiya dövründə inkişaf etdirmək üçün qadınların səlahiyyətlərinin artırılması çox vacibdir.

Milli Məclisin Sədri Azərbaycanda qadınlarla bağlı həyata keçirilən dövlət siyasətinin uğurları barədə məlumat verərək deyib ki, Azərbaycanda qadınlar cəmiyyətdə mühüm rol oynayırlar. S.Qafarova xüsusilə vurğulayıb ki, Azərbaycan müsəlman dünyasında qadınlara səsvermə və seçilmə hüququ verən ilk ölkə olub. Bu, hətta bir çox Avropa ölkəsindən daha əvvəl - 1918-ci ildə baş verib.

O bildirib ki, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə qadınların hüquqlarının qorunması və onlara geniş imkanların yaradılması istiqamətində mühüm işlər görülüb. O cümlədən Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, qadınların rolunun artırılması və qadınlarla bağlı mühüm qərarların, habelə müxtəlif qanunların qəbul edilməsi, gender bərabərsizliyinin və qadınlara qarşı zorakılığın aradan qaldırılması və digər tədbirlər Azərbaycanda qadınlarla bağlı dövlət siyasətinin uğurla həyata keçirilməsində mühüm rol oynayıb. S.Qafarova qeyd edib ki, bu gün Azərbaycanda qadınlar qərarqəbuletmədə yüksək vəzifələr tuturlar.

Sonra Sahibə Qafarova ölkəmizdə gender bərabərliyinin təmin olunması, qadınların fəallığının artırılması istiqamətində həyata keçirilən geniş tədbirlər, yerli və beynəlxalq layihələr barədə də məlumat verib və bu qəbildən olan layihələrin pandemiyadan sonrakı dövrdə də uğurla davam etdiriləcəyinə inandığını bildirib.

Milli Məclisin Sədri çıxışında qaçqın və məcburi köçkün olan qadınların üzləşdiyi problemlər barədə də danışıb. O qeyd edib ki, pandemiya dövründə bütün dünyada qaçqın və məcburi köçkün düşmüş qadın və qızların qayğı və ehtiyaclarına diqqət yetirilməli, bu qrupdan olan şəxslərin layiqli və təhlükəsiz şəraitdə doğma yurdlarına geri qayıtmaq hüquqları təbliğ və təşviq edilməlidir. Təəssüf ki, bu gün bu həssas qruplara sahib bir çox ölkə var. Bu ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdə XX əsrin sonlarında Ermənistanın işğalçılıq siyasəti nəticəsində öz doğma yurdlarını tərk etmiş bir milyondan çox qaçqın və məcburi köçkün var, onların böyük hissəsi qadınlar və qızlardır.

Milli Məclisin Sədri xatırladıb ki, ötən il Azərbaycan 44 günlük Vətən müharibəsində öz imkanları və gücü hesabına ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoydu və öz tarixi torpaqlarını - Qarabağı azad edərək ərazi bütövlüyünü bərpa etdi. 2020-ci il noyabrın 10-da bölgədə davamlı sülhün təmin edilməsinə yönəlmiş Üçtərəfli Bəyanat imzalanıb. Təəssüf ki, Ermənistan tərəfindən həmin ərazilərin minalanması və sərhədimizdə davamlı təxribatlar törədilməsi sülhyaratma prosesinə mane olur.

Sonda Sahibə Qafarova ümidvar olduğunu bildirib ki, biz deputatlar münaqişənin təsir etdiyi qadınlara pandemiyadan sonrakı yeni şəraitdə daha rahat və məhsuldar bir həyat yaşamalarına kömək etmək üçün əlimizdən gələni əsirgəməyəcəyik. O, bu sammitin nəticələrinin qadınların və qızların rifahına töhfə verəcəyinə inandığını vurğulayıb.

# Vyanada Qadın Parlament Sədrlərinin 13-cü Sammiti işə başlayıb

Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi nümayəndə heyəti Avstriyanın paytaxtı Vyana şəhərində işgüzar səfərdədir.




AZƏRTAC xəbər verir ki, sentyabrın 6-da Vyana Beynəlxalq Mərkəzində Qadın Parlament Sədrlərinin 13-cü Sammiti işə başlayıb.

Norveç parlamentinin və Sammitin sədri Tone Vilhelmsen Tröen, Avstriya parlamentinin prezidenti Volfqanq Sobotka, Parlamentlərarası İttifaqın prezidenti Duarte Paşeko açılış çıxışları ediblər.

Çıxışlarda Parlamentlərarası dialoqun gücləndirilməsi, qadın parlamentarilərin bu əlaqələrin inkişafında rolu, gender bərabərliyinin həm cəmiyyətdə, həm də qanunverici və digər orqanlarda təmin olunmasının vacibliyindən bəhs edilib. Eyni zamanda, parlamentlərin koronavirus pandemiyasına qarşı mübarizənin təşkilinə və sosial-iqtisadi fəsadların aradan qaldırılmasına töhfə verdikləri vurğulanıb.

Sammitdə Milli Məclisin Sədri Sahibə Qafarova müzakirə olunacaq məsələlərlə bağlı çıxış edib. Qeyd edək ki, Azərbaycan nümayəndə heyəti sentyabrın 7-8-də Parlament Sədrlərinin V Ümumdünya Konfransında iştirak edəcək.

Səfər sentyabrın 9-da başa çatacaq.

# Milli Məclisin Sədri Sahibə Qafarova Latviya Parlamentinin sədri İnara Murniyetse ilə görüşüb



Sentyabrın 6-da Milli Məclisin Sədri Sahibə Qafarova Avstriyaya işgüzar səfəri çərçivəsində Vyanada Latviya Parlamentinin sədri İnara Murniyetse ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, həmkarını səmimiyyətlə salamlayan spiker Sahibə Qafarova Azərbaycanın dost və strateji tərəfdaş Latviya ilə həyatın müxtəlif sahələrində əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini bildirib. Milli Məclisin Sədri qeyd edib ki, hər iki ölkə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ikitərəfli münasibətlərimizin inkişafında yeni mərhələ başlayıb və ötən dövrdə siyasi, iqtisadi və humanitar sahələrdə uğurlu əməkdaşlıq həyata keçirilib. Sahibə Qafarova ikitərəfli əlaqələrin inkişafında dövlət başçılarının xüsusi rolunu vurğulayaraq ölkə liderlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə qeyd olunub ki, Azərbaycan və Latviya arasında Avropa strukturları, Şərq tərəfdaşlığı və digər beynəlxalq platformalarda da sıx əməkdaşlıq mövcuddur. İkitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində qurulan əlaqələr qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə söykənir.

Spiker S.Qafarova Azərbaycan və Latviyanın qanunverici orqanları arasında əməkdaşlıqdan danışaraq hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə Milli Məclisin Sədri latviyalı həmkarına Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı Zəfər haqqında məlumat verərək deyib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun şücaəti sayəsində Ermənistanın 30 illik işğalına son qoyulub. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini özü yerinə yetirərək ərazi bütövlüyünü bərpa edib. Spiker Sahibə Qafarova Qarabağ münaqişəsinin artıq tarixə qovuşduğunu vurğulayaraq, hazırda işğaldan azad olunan ərazilərimizdə bərpa və quruculuq işlərinə başlandığını bildirib. O, həmçinin qeyd edib ki, Ermənistan 30 il işğal altında saxladığı şəhər və kəndlərimizi, tariximizə və mədəniyyətimizə aid abidələri dağıdıb, milli sərvətlərimizi talan edib, dini abidələrimizi, məscidlərimizi təhqir edib, həmin ərazilərin infrastrukturu tamamilə məhv olunub. Sahibə Qafarova Ermənistanın regionda davamlı sülhün təmin olunmasına mane olan təxribatçı hərəkətləri barədə də məlumat verib.

Latviya Parlamentinin sədri İnara Murniyetse də öz növbəsində Azərbaycan Milli Məclisinin sədrini səmimiyyətlə salamlayaraq ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə edib. O, Latviyanın Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini söyləyib. Bildirilib ki, yüksəksəviyyəli siyasi əlaqələrimiz iqtisadi, mədəni, humanitar sahələrə də öz müsbət təsirini göstərir.

İnara Murniyetse beynəlxalq münasibətlər sistemində parlament diplomatiyasının əhəmiyyətini vurğulayaraq ölkələrimizin qanunverici orqanları arasında münasibətlərdən bəhs edib, parlamentlərarası əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri, ikitərəfli və beynəlxalq platformalarda əməkdaşlığın müxtəlif aspektləri barədə danışıb. O, bu əlaqələrin yüksələn dinamika üzrə inkişaf etdiyini və qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına xidmət etdiyini deyib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycanın Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



Avstriyanın paytaxtı Vyanada işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 6-da Parlamentlərarası İttifaqın (PAİ) Baş katibi Martin Çunqonq ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanla Parlamentlərarası İttifaq arasında əməkdaşlıqdan məmnunluq ifadə edib. Ötən dövrdə qurum rəsmilərinin, o cümlədən PAİ-nin Baş katibi Martin Çunqonqun ölkəmizə səfərlərinin çox faydalı olduğunu deyən spiker bu beynəlxalq parlament təşkilatının dünya miqyasında parlamentlərarası əlaqələrin qurulmasında və möhkəmlənməsində mühüm rol oynadığını söyləyib. Azərbaycan parlamentinin rəhbəri deyib ki, beynəlxalq parlament qurumları ilə ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq edən Milli Məclis Parlamentlərarası İttifaqla əlaqələrin genişləndirilməsinə mühüm əhəmiyyət verir.

Sahibə Qafarova bildirib ki, Azərbaycan beynəlxalq miqyaslı bir çox forum və sammitlərə, həmçinin PAİ-nin tədbirinə uğurla evsahibliyi edib.

Söhbət zamanı bölgədə yaranmış yeni reallıqlar, 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı qələbə, ötən ilin 10 noyabrında imzalanmış üçtərəfli Bəyanatın icrası istiqamətində ölkəmizdə görülən işlər barədə ətraflı məlumat verilib. Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə təcavüzkar Ermənistana qalib gəldi, 30 il davam edən işğala son qoyaraq ərazi bütövlüyünü təmin etdi. Azərbaycan tərəfinin siyasi iradəsi və ordumuzun rəşadəti sayəsində BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildən kağız üzərində qalan 4 qətnaməsi icra olundu. Hazırda ölkəmiz işğaldan azad etdiyi Qarabağda minalardan təmizləmə, abadlıq və quruculuq işləri aparır, Cənubi Qafqazda davamlı sülhün, sabitliyin və təhlükəsizliyin yaranması istiqamətində mühüm işlər görür. Ermənistan isə təxribatçı əməllərindən əl çəkmir.

Sonra çıxış edən Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq bölgədə sülhün bərpasından məmnunluq duyduğunu vurğulayıb. 2017-ci ildə Azərbaycana etdiyi səfərlə bağlı təəssüratlarını bölüşərək hələ o zaman qaçqın və məcburi köçkünlərlə görüşdüyünü, həmin insanların problemləri ilə tanış olduğunu bildirib.

Milli Məclisin Parlamentlərarası İttifaqda təmsilçiliyini yüksək dəyərləndirən Martin Çunqonq ölkəmizin təşkilatın geosiyasi qruplarından birinə üzv olacağına və bu üzvlüyün səmərəli nəticələr verəcəyinə ümidvar olduğunu ifadə edib. O, Azərbaycan parlamenti ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını deyib. Baş katib Parlamentlərarası İttifaqdakı Azərbaycan nümayəndə heyətinin qurumun komitə iclaslarında iştirakının əhəmiyyətini qeyd edib.

Görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunub.






# QARABAĞ dirçəliş yolundadır






## Bu günədək 180-dən çox Şuşa sakini 29 illik ayrılıqdan sonra doğma şəhərini görmək imkanı qazanıb

Sentyabrın 5-də daha 80 nəfər Şuşa sakini doğma şəhərə səfər edib. AZƏRTAC xəbər verir ki, Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin birgə təşkil etdiyi səfərdə ilk olaraq yaşlı nəslin nümayəndələri, Qarabağ qaziləri, şəhərin ziyalıları iştirak ediblər.



Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov şuşalıları salamlayaraq bildirib ki, ölkənin "mədəniyyət paytaxtı" adını daşıyan şəhərdə yenidənqurma və bərpa işləri tam sürətlə davam edir. Şəhərin baş planına uyğun olaraq yeni məhəllələr salınır, şəhərin həyat əhəmiyyətli infrastrukturu tam yenilənir, tarixi abidələri bərpa edilir. Eyni zamanda XXI əsrin standartlarına cavab verən müasir və ekoloji təmiz şəhərsalma yanaşması tətbiq olunur.

Şuşalıların diqqətinə çatdırılıb ki, şəhər sakinlərinin belə səfərləri mütəmadi təşkil olunacaq.

Sonra sakinlər Cıdır düzü, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Qala divarları, Gəncə qapısı, Yuxarı Gövhər ağa məscidini ziyarət ediblər. Səfər zamanı sakinlər öz evlərini də ziyarət etmək imkanı qazanıblar.

Xatırladaq ki, şuşalıların ilk səfəri avqustun 19-da baş tutub və bu günədək artıq 180-dən çox Şuşa sakini 29 illik ayrılıqdan sonra öz doğma şəhərini görmək imkanı qazanıb.

## "Bu gün doğma evimizə baş çəkdiyim an yaşadığım hissləri sözlə ifadə edə bilmirəm"

"Şuşaya ayaq basanda uşaqlığım, gəncliyim yadıma düşür. Şuşadan çıxanda 22 yaşım vardı. Həyatımın ən gözəl illərini Vətən həsrəti ilə keçirdim.



Birinci Qarabağ müharibəsində Şuşa uğrunda döyüşlərdə iştirak etmişəm. Çox təəssüf ki, o zaman heç nə istədiyimiz kimi olmadı. Ömür boyu bunun ağrısı ilə yaşamışam. 30 ilə yaxın müddət keçsə də, xalqımız torpaq itkisini unutmadı, daim əmrə müntəzir, döyüşə hazır oldu. Ötən il nəhayət ki, sentyabrın 27-də düşmənin təxribatına qarşı Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatları başlandı. Qismən səfərbərlik elan olundu. Minlərlə gənc könüllü olaraq cəbhə xəttinə axışdı. Çox sevinirəm ki, həmin gənclər arasında oğlum İbrahim Mirzəzadə də var. Oğlum Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib və qazi olub. "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub. Övladımın Qələbədə pay sahibi olmasına görə qürur duyuram. Bu gün doğma evimizə baş çəkdiyim an yaşadığım hissləri sözlə ifadə edə bilmirəm. Bir yandan evin bu halına görə təəssüf hissi keçirdim, bir yandan da quru divarları görmək belə məni xoşbəxt etdi".

AZƏRTAC xəbər verir ki, bunu Şuşa sakini, Birinci Qarabağ müharibəsi iştirakçısı Yusif Mirzəyev deyib.

Müsahibimizin anası İlduzə Mirzəyeva uzun illərdən sonra ömrünün çox hissəsini keçirdiyi evi görməyin bir başqa duyğu olduğunu bildirib: "Evimiz 1970-ci ildə tikilib. Mənfur qonşularımız evimizdə söküntüyə yol veriblər. Böyük zəhmətlə tikib-qurduğumuz evi belə görmək ürək ağrıdır. Şuşadan çıxanda evimizdən əşyalarımızı götürə bilmədik. Hamısı burada qaldı. İndi isə ev bomboşdur. Namərdlər hər şeyi daşıyıblar. Lakin yenə də hər daşında, divarında gözəl xatirələr olan evimizə baş çəkdiyimə görə sevinirəm. Biz bu evi yenidən qurub yaratmağa, əvvəlki günlərdəki kimi yaşayışı bərpa etməyə hazırıq. Mən Azərbaycan dili və ədəbiyyat müəlliməsiyəm. Hər zaman məktəbdə şagirdlərimi vətənpərvərlik ruhunda böyütməyə çalışıram. Çünki vətənpərvər oğullar valideynlərlə yanaşı, peşəkar müəllimlərin də şah əsəridir.

Yoldaşım Zakir Mirzəyev də Şuşa uğrunda döyüşlərdə iştirak edib. O, sürücü idi. Qarşılaşdığı təhlükələrə və sürdüyü avtobusun vurulmasına baxmayaraq, Şuşa sakinlərini xilas edərək Laçına çatdırıb. Təəssüf ki, Şuşanı bir daha görmədən bu dünyadan köçdü. Bir qazi nənəsi və müharibə iştirakçısı anası və yoldaşı olaraq şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə şəfa arzulayıram. Allah hərbçilərimizin, əsgərlərimizin ayağına daş dəydirməsin. Hamısı mənim nəvəmdir. Nəvəm İbrahimlə də fəxr edirəm. Bizə evimizi görməyə şərait yaratdığına görə ölkə başçısına dərin minnətdarlığımı bildirirəm".

## "Bizə Şuşaya qayıtmaq sevincini bəxş edən Ali Baş Komandana minnətdarıq"

"Bu gün çox sevincli bir gündür. Bu şərəfi, sevinci bizə yaşadan şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirəm.



Bizə Şuşaya qayıtmaq sevincini bəxş edən Ali Baş Komandana minnətdarıq. Şuşadan çıxanda 34 yaşım var idi. Özüm Birinci Qarabağ müharibəsində iştirak etmişəm. Son ana kimi döyüşmüşəm. Azərbaycanın rəşadətli Ordusu yarımçıq qalan mübarizəmizi uğurla tamamladı".

AZƏRTAC xəbər verir ki, bunu Şuşa sakini, ehtiyatda olan polkovnik-leytenant Təvəkkül Hüseynov bildirib.

"Erməni vandalları mədəniyyət beşiyi olan Şuşanı dağıtsalar da, hazırda burada çox yüksək səviyyədə bərpa işləri görülür. Aparılan quruculuq işləri Şuşanın gələcəyinin çox parlaq olacağını nümayiş etdirir", - deyə T.Hüseynov bildirib.



# Şuşanın yeni baharı payızda gəldi

*Əvvəli 1-ci səh.*

Digər tərəfdən isə minlərlə sadə erməni övladının nahaq ölümü ilə barışa bilmir, iqtidara da, müxalifətə də nifrət edir.

İndi isə sərhədin bu tayına - Vətənə baxaq. 44 günlük müharibədən ötən 9 ay ərzində Azərbaycanın bu əraziləri tikinti meydanına çevrilib. Budur, Füzuli aeroportu, 100 kilometrdən uzun "Zəfər yolu", bünövrəsi qoyulan "ağıllı" kənd və şəhərlər. Seyr edin və erməni faşizmi ilə sülhsevər Azərbaycan xalqının başlıca fərqlərinə dönə-dönə əmin olun. Əmin olun və görün ki, biz nə qədər qurucu, yaradıcı xalqıqsa, erməni faşistəri də bir o qədər müharibələrin və barbarlığın sadiq qullarıdır.

Bu müharibədə biz yalnız torpaqlarımızı işğaldan azad etmədik, həm də mədəniyyətimizi beşiyinə qaytardıq və muğamı yenidən Qarabağın səmalarında qanadlandırdıq, "Xarıbülbül"ü düşmən caynağından aldıq, payızda Şuşaya yenidən bahar gətirdik. Prezident İlham Əliyev Vaqif Poeziya Günlərinin açılış mərasimində həm erməni faşizminin mahiyyətini açıqlamış, həm də Şuşanın Azərbaycan üçün hansı fəlsəfi məzmun daşıdığını izah etmişdir: "Əfsuslar olsun ki, Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr, o cümlədən Vaqifin məqbərəsi vandallar tərəfindən dağıdılmışdır. Şuşanın işğalı xalqımızın böyük faciəsi idi. Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır".

İndi İrəvanda erməni millətçiləri Şuşa üçün timsah göz yaşları axıdaraq zırzır ağlayırlar. Amma özləri də yaxşı bilirlər ki, bu müqəddəs şəhərin onlara heç bir dəxli yoxdur. Yəqin ki, adı hamıya bəlli heyvan zəfəranın nə olduğunu qananda erməni millətçiləri də Suşanın bizim üçün necə müqəddəs şəhər olduğunu anlayacaqlar. Onlar Şuşaya, bütün Qarabağa necə bağlı olduqlarını 30 ilə yaxın işğalda saxladıqları ərazilərimizdə törətdikləri ağlasığmaz vəhşiliklərlə nümayiş etdirdilər.

İndi gəlin bizim nümayiş etdirdiyimizə baxaq, Şuşanın yalnız bir gününə nəzər salaq. Avqustun 29-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa işğaldan azad edildikdən sonra bu şəhərdə Heydər Əliyev Fondu tərəfindən ilk dəfə təşkil edilən Vaqif Poeziya Günlərində iştirak etdilər. Dövlət başçısı tədbirdəki çıxışında dedi: "44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır". Dövlət başçısının dediyi bu əməli addımlar bizim mədəniyyətimiz, tariximiz, indimizlə bağlıdır.

Avqustun 29-da Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin, Xalq artisti Bülbülün ev-muzeyinin, dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimləri də keçirildi. Bundan başqa, "Hotel və Konfrans Mərkəzinin" təməli qoyuldu, yenidənqurma işləri yekunlaşan "Qarabağ" hoteli açıldı. Bu tədbirlərdə iştirak edən dövlət başçısı və birinci xanım həm də Üzeyir bəy Hacıbəylinin ev-muzeyində və Şuşada xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada görüləsi bərpa işləri ilə tanış oldular. Bəli, bütün bunlar bizim təkcə bir gündə nümayiş etdirdiklərimizdir.

Şuşa bizim hər birimizin ürəyidir. 30 il idi hər birimizin içində Şuşa boyda və Şuşa adlı daim qan sızan yara vardı. Eşq olsun Ali Baş Komandana və müzəffər Ordumuza ki, bu müqəddəs şəhərimizi, namusumuza, qeyrətimizə bərabər Şuşanı geri qaytardı.

Bütün bunlar bizə onu deməyə əsas verir ki, işğaldan azad edilmiş ərazilərdə gedən quruculuq işləri dərin məna kəsb edir və zahirən göründüyü qədər də sırf iqtisadi tədbirlər, işğaldan azad edilmiş ərazilərin bərpası kimi qiymətləndirilməli deyil. Bu həm də işğalçı Ermənistanla aparılan soyuq müharibənin davamıdır. Yadelli işğalçılar nə qədər qaniçən və qəddar olduqlarını ortaya qoyurlarsa, biz də gördüyümüz işlərin miqyası və sürəti ilə sülhə və əmin-amanlığa sədaqətimizi sübut edirik.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Ağdam sakinləri üçün "Yolumuz Ağdama" adlı səfərlər davam etdiriləcək

"Düşmənin viran qoyduğu Ağdam şəhərinə sentyabrın 5-də "Yolumuz Ağdama" adlı ilk səfər təşkil olundu. Ağdam sakinləri doğma şəhərlərinə uzun illərdən sonra yenidən ayaq basdılar. Vətəndaşlarımızın Ağdama səfərini böyük qayıdışın bir hissəsi kimi görürük". AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bunu Ağdam şəhəri daxil olmaqla, Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

O bildirib ki, Ağdam rayonu mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş rayonlarımızdandır: "Bu, bizim işimizdə çox böyük çətinliklər yaradır. Buna baxmayaraq, işlər sürətlə gedir. Mina təhlükəsini aradan qaldırdıqca, Ağdama səfərləri daha təhlükəsiz şəkildə təşkil edəcəyik. Ağdam sakinləri öz dədə-baba yurdlarına qayıdacağı günə qədər bu səfərlər davam edəcək. Vətəndaşlarımız Ağdamın həm indiki vəziyyəti, həm də burada gedən quruculuq işləri ilə tanış olacaqlar".

## Ağdamlılar 28 ildən sonra doğma şəhərlərini ziyarət ediblər




Sentyabrın 5-də Ağdam sakinlərinin bir qrupu işğaldan azad olunmuş Ağdam şəhərinə səfər edib. Səfər Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi tərəfindən təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov ağdamlıları doğma şəhərlərində salamlayıb. Bildirib ki, 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusu Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi Qələbə qazandı. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad edildi. İllərdir doğma yurd həsrəti ilə yaşayan həmvətənlərimizin ən böyük arzusu yerinə yetdi.

"2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanatın şərtlərinə uyğun olaraq Ermənistan Ağdam şəhərini və digər əraziləri Azərbaycana qaytarmağa məcbur oldu. Noyabrın 23-də Ağdam şəhərinə səfər edən Prezident İlham Əliyev burada Zəfər bayrağını qaldırdı. Həmin tarixdən etibarən genişmiqyaslı, əlaqələndirilmiş şəkildə işlər həyata keçirilir. 2021-ci il mayın 28-də Prezident İlham Əliyev Ağdama səfər edərək, şəhərin baş planının təqdimatında və bir sıra obyektlərin təməlqoyma mərasimində iştirak edib. Artıq düşmənin talayaraq məhv etdiyi ərazilərimizin, o cümlədən Ağdamın yeni quruculuq, inkişaf dövrü başlayıb", - deyə Emin Hüseynov vurğulayıb.

Səfər iştirakçıları əvvəlcə Ağdam şəhərinin baş planı ilə tanış olublar. Onlara Ağdamda həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verilib. Ağdam sakinləri daha sonra Cümə məscidini, İmarət kompleksini, Çörək muzeyinin və Dram Teatrının qalıqlarını ziyarət ediblər. Şəhərin gəzintisi zamanı Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov ağdamlılara həyata keçiriləcək yenidənqurma işləri, o cümlədən yaradılacaq Zəfər muzeyi, açıq hava altında İşğal muzeyi və Memorial bağ barədə məlumat verib.

Ağdam sakinləri səfər çərçivəsində Qiyaslı kənd məscidində və Şahbulaq qalasında da olublar.

## *Aydın KƏRİMOV:* "Şuşanın tarixi görkəminin bərpası istiqamətində ciddi addımlar atılır"

"Əziz şuşalılar, uzun müddət sürən ayrılıqdan sonra müqəddəs Qarabağ torpağına ayağınızı basdınız, doğma şəhərinizə qovuşdunuz.



Ötən il Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 44 günlük müharibənin sonunda möhtəşəm Zəfər qazandı və hər kəsə möcüzə kimi görünən bir döyüşlə Şuşanı azad etdi. Allahdan bütün şəhidlərimizə rəhmət diləyir, qazilərimizə cansağlığı arzu edirəm. Şuşalıları doğma torpaqlarında görmək həm qürurvericidir, həm də xoşbəxtlikdir".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirib.

Aydın Kərimov deyib: "Şuşa dirçəlir, yenidən qurulur və şəhərin abadlaşdırılması dövlət başçısının xüsusi diqqətindədir. İşlər sürətlə aparılır. Siz öz doğma şəhərinizin getdikcə daha da gözəlləşməsinin və dirçəlməsinin şahidi olacaqsınız. Arzumuz odur ki, tezliklə öz doğma yurdunuza qayıdasınız. Vaqif Poeziya Günləri çərçivəsində Prezident İlham Əliyev tərəfindən Şuşada ilk yeni yaşayış kompleksinin təməli qoyulub. Orada gözəl və Şuşa memarlıq üslubuna uyğun olan evlər tikiləcək və sizlər oranın sakinləri olacaqsınız.

Şuşanın tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması istiqamətində ciddi addımlar atılır. Burada Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi fəaliyyətə başlayıb. Hamımız bir nəfər kimi bu işdə əlimizdən gələni əsirgəməyəcəyik".

## "Allaha dua edirdik ki, gözəl Şuşamızı görmədən bu dünyadan köçməyək"

"Bu gün sevincimin həddi-hüdudu yoxdur. Çünki 30 ilə yaxındır həsrəti ilə yaşadığım Şuşama qovuşmuşam. İllərdir Şuşanı ancaq yuxularda görürdüm.



Allahın rizası ilə, Prezident İlham Əliyevin rəhbərliyi altında Koroğlu nərəli şəhid və qazilərin 44 gün ərzində göstərdikləri şücaət, Həcər ismətli qadınların mətanəti, bir yumruq kimi birləşən Azərbaycan xalqının əzmkarlığı hesabına yuxularım gerçəkləşdi. Bütün bunlar Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində reallaşdı".

AZƏRTAC xəbər verir ki, bunu Şuşa sakini Tünzalə Babayeva deyib.

"Uzun illər dədə-baba yurdumuzdan məcburi köçkün olsaq da, ürəyimiz Şuşa həsrəti ilə alışıb-yanırdı. Əmin idik ki, bir gün bura qayıdacağıq. Biz öz Prezidentimizə, qəhrəman ordumuza inanırdıq. Onlar da ötən il çoxdan gözlənilən qələbəni 44 gün ərzində bizə bəxş etdilər. Şuşa azad edilən gündən bura gəlməyimizi arzulayırdıq. Allaha dua edirdik ki, gözəl Şuşamızı görmədən bu dünyadan köçməyək. Bu günə şükür, Şuşa yanğımızın üzərinə su səpildi.

Həsrətimizə son qoyan şəhidlərimizin ruhu, onların analarının qarşısında baş əyirəm. Əzalarını itirən, ağır xəsarət alan qazilərimizin tezliklə öz sağlamlıqlarına qovuşmasını diləyirəm. Allah ordumuzu xəta-bəladan, namərd gülləsindən qorusun.

Mən Şuşa rayonunun Xəlfəli kəndindənəm. Bu gün öz kəndimi görə bilməsəm də, doğma şəhərimizi görmək belə ürəyimi sakitləşdirir. Arzu edirəm ki, tezliklə öz yurd-yuvamıza dönək, əvvəlki kimi burdan azərbaycanlıların hənirtisi gəlsin, Şuşaya yeni nəfəs verək. Dua edirəm ki, Şuşa həsrətində olub, lakin səhhətlərində yaranan problem səbəbindən gələ bilməyənlər də tezliklə sağalıb doğma şəhəri görməyə gəlsinlər", - deyə T.Babayeva qeyd edib.

## *Şəhid bacısı:* "Əminəm ki, qardaşımın illərdir Şuşa səmasında dolanan narahat və nigaran ruhu indi şaddır"

"Bu gün mənim üçün hisslərimi ifadə etmək çox çətindir. Yolboyu Şuşa ilə bağlı xatirələrimi yada salıb kövrəlirdim. Bu həm də sevinc gözyaşları idi.



Qardaşım Cavad Şükürov 24 yaşında Birinci Qarabağ müharibəsində Şuşa uğrunda gedən döyüşlərdə son damla qanına qədər vuruşaraq şəhid olub. Əminəm ki, indi onun illərdir Şuşa səmasında dolanan narahat və nigaran ruhu şaddır. Qəhrəman oğullarımız Birinci Qarabağ müharibəsi şəhidlərinin qanını yerdə qoymadılar, öz canları, qanları bahasına düşmənlərimizi torpaqlarımızdan çıxardılar. Bu torpaqlar minlərlə şəhidin, qazinin qanı ilə suvarılıb. Bizim də borcumuz həmin əraziləri yenidən canlandırmaq, əvvəlki əzəmətini, yaşayışı bərpa etməkdir. Biz burada yurd saldıqca, nəvələrimiz, gələcək nəsillər bu torpaqlarda addım atdıqca şəhidlərin ruhu daha da rahatlıq tapacaq".

AZƏRTAC xəbər verir ki, bunu Şuşa sakini, şəhid bacısı Mahirə Şükürova deyib.

"Bir şəhid bacısı olaraq, şəhid ailələrinə səslənərək deyirəm ki, nə qədər ağır olsa da, başınızı dik tutun. Çünki bizim şəhid olan əzizlərimiz elə bir zirvəyə ucalıblar ki, öz yaxınlarına bir ömürlük hörmət-izzət və qürur bəxş ediblər.

Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Müzəffər Ali Baş Komandanın rəşadətli Ordusu düşmənə elə bir dərs verib ki, neçə nəsil keçsə də, bunu unutmayacaqlar. Biz də şəhidlərimizin, qazilərimizin göstərdiyi igidliyi, bizə bəxş etdiyi möhtəşəm Zəfəri heç zaman yadımızdan çıxarmayacaq, gələcək nəsillərə ötürəcəyik. Bu torpaqlar üçün qanını, canını verənlər böyükdən-kiçiyə hər kəsin yaddaşında əbədi həkk olunublar", - deyə M.Şükürova vurğulayıb.

◆Jurnalist araşdırması

# Tibdə biganəlik və məsuliyyətsizlik ölümlə nəticələnə bilir

## Səhiyyə Nazirliyi və TƏBİB pandemiya sınağından hələ ki uğurla çıxa bilmir

Əvvəli 1-ci səh.

### Prezident İlham Əliyev: "Bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır"

Pandemiya qlobal bəlaya çevriləndən sonra ona qarşı səmərəli mübarizəyə başlayan ilk ölkələrdən biri də Azərbaycan olub. Prezident İlham Əliyevin birbaşa göstərişi ilə əhalinin bu infeksiyanın törətdiyi fəsadlardan qorunması üçün ən yüksək səviyyədə çevik və sistemli tədbirlər həyata keçirilib. Qısa zamanda çoxsaylı ixtisaslaşmış səhiyyə ocaqları və laboratoriyaların istifadəyə verilməsi, modul tipli xəstəxanaların quraşdırılması, tibb müəssisələrinin maddi-texniki təchizatının gücləndirilməsi, həkimlərin biliklərinin artırılması məqsədilə təcrübə mübadiləsinin təşkili bu istiqamətdə görülən tədbirlərin qısa siyahısıdır. Bunlardan savayı, həkimlərin sayının artırılması ilə əlaqədar olan təbii çətinliklərin aradan qaldırılması üçün hətta ölkəmizə xaricdən mütəxəssislər də dəvət edilmişdir. Türkiyədən, Rusiyadan, Kubadan, İtaliyadan, Çindən gələn həkim briqadaları uzun müddət bizim mütəxəssislərlə birgə xəstələrin müalicəsi ilə məşğul olmuşlar. Bütün bunlar sözsüz ki, vətəndaşlarımızın sağlamlığının qorunmasına yönəlmişdir.

Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını dəfələrlə vurğulayan Prezident İlham Əliyev hələ 2020-ci il avqustun 6-da ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı keçirilən müşavirədə insan sağlamlığının ən birinci məsələ olduğunu xatırlatmışdır: "Bundan sonra da insanların sağlamlığının qorunması üçün bütün lazımi tədbirlər görüləcək. Mən bir daha qeyd etmək istəyirəm, - bunu dəfələrlə demişəm və Azərbaycan xalqı mövqeyimizi bilir, - bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır... Yeganə yolumuz insanları qorumaq, yoluxmaların sayını azaltmaq, xəstəliyin geniş vüsət almasına yol verməmək və beləliklə, vətəndaşlarımızı, dövlətimizi bu vəziyyətdən xilas etməkdir".

Həqiqətən, dövlət başçısının birbaşa tapşırığı ilə görülən tədbirlər, koronavirusla mübarizə işinə ayrılan maliyyə vəsaitləri Azərbaycan səhiyyəsinin bu kritik dönəmdən üzüağ, vətəndaşlarının isə sağlam çıxmasına hesablanıb. Çünki bütün tədbirlər ən xırda detalına qədər Azərbaycan vətəndaşının mənafeyi, sağlamlığı nəzərə alınmaqla görülür.

### Təəssüf ki, dövlətin gördüyü bu tədbirlər bəzən kiminsə şəxsi maraqlarının güdazına gedir

Məsələn, hələ keçən il yoluxma sayının getdikcə artdığı bir zamanda xəstəliyi simptomsuz və ya yüngül simptomlarla keçirdiyi üçün evdə müalicə olunan xəstələrə dövlət tərəfindən müvafiq dərmanların veriləcəyi açıqlanmışdı. Lakin hər birimiz bu dərmanların çox az sayda xəstəyə verildiyinin şahidi olduq. Poliklinikalar gah xəstələrə, ümumiyyətlə, dövlət tərəfindən dərmanın verilmədiyini, gah dərmanların qurtardığını bildirdi, gah da "dərmanı biz vermirik, onu gedib TƏBİB-dən alın" deməklə bu məsuliyyətdən yan qaçdılar.

Bu hələ harasıdır. Yəqin ki, bir müddət əvvəl evdə müalicə olunan xəstələr üçün verilən dərman paketlərinin apteklərdə satışa çıxarılması ilə bağlı sosial şəbəkələrdə yayılan məlumatlar və fotolar da çoxlarının yadındadır. Rəsmi qurumlar dərmanların satılmasını təkzib etsələr də, fakt odur ki, xəstələr bu dərmanları uzun müddət əldə edə bilmədilər! Ən pisi isə odur ki, belə hallar dalğasının sayını itirdiyimiz indiki viruslu günlərdə də davam edir.

### Analiz nəticələrinin gec çıxmasının yaratdığı problemlər

COVID-19 pandemiyası başlayandan əhaliyə edilən ilk tövsiyə koronavirusa şübhəli əlamətlər hiss edən kimi yaxma nümunəsi verməkdir. Odur ki, koronavirusa yoluxmasından şübhələnən şəxslərin demək olar ki, böyük əksəriyyəti analiz üçün dövlət müəssisələrinə müraciət edir. Lakin analizin götürülməsi ilə bağlı müraciətlərə cavabın gec verilməsi, analizin gec götürülməsi, yaxma nümunəsinin götürüldüyü vaxtla nəticənin açıqlanma vaxtı arasındakı müddətin uzun olması xəstəliyin ilkin mərhələdə, yəni kəskinləşmədən müalicəsinə imkan vermir.

Həkimlər daha ağır fəsadlaşmaların yaranmaması üçün xəstələrə həkim nəzarəti altında müalicə olunmasını tövsiyə etsələr də, cavabın gec açıqlanması özəl klinikanın xidmətlərindən istifadə üçün maddi imkanı yetərli olmayan xəstəni özünümüalicə tədbirlərinə başlamağa məcbur edir. Özünümüalicə tədbirlərinin hansı fəsadlar yaratdığı isə məlumdur. Test cavabının gec açıqlanması müalicə oluna bilməyən xəstənin vəziyyətinin getdikcə ağırlaşmasına səbəb olmaqla yanaşı, yoluxmanın artmasına da gətirib çıxarır. Çünki hələ koronavirusa yoluxub-yoluxmadığını bilməyən şəxslər ictimai yerlərdə olduqları zaman ətrafdakıları da virusa yoluxdururlar.

### Bir gündə verilən testlərin fərqli cavabları

Əhalini çaşdıran və sual qarşısında qoyan hallardan biri də koronavirusa yoluxub-yoluxmadığını dəqiq müəyyən edə bilməsi üçün bir neçə tibb müəssisəsində verdiyi yaxma nümunələrinə müxtəlif cavabların verilməsidir. Yəni fərqli klinikalarda verilən analizlərin nəticələri də fərqli olur.

Məsələn, bu yaxınlarda sosial şəbəkədə Rumiyyə Miraslan adlı bir istifadəçi ona göndərilən rəsmi bildirişləri paylaşaraq yazıb ki, COVID-ə yoluxub sağalmasından sonra - yoluxmanın 15-ci günündə biri dövlət, digəri özəl klinika olmaqla cəmi 10 dəqiqə fərqlə iki COVID analizi verib. Onların birinin nəticəsi neqativ, digəri pozitiv çıxıb. Elə bu vəziyyət də onu çox anlaşılmaz vəziyyətə salıb: "Özəl klinika virusun aşkarlanmadığını açıqlayandan sonra portalda test nəticəmin neqativ, immun sertifikatımın müddətinin fevraladək olduğu qeyd edildi. Analiz veriləndən 6 gün sonra isə dövlət müəssisəsi cavabın pozitiv olduğunu açıqladı, daha sonra portaldakı immun sertifikatımın tarixi silindi. Portala nəzarət edənlər baxmırlar ki, eyni gündə verilən analizlərin cavabı niyə fərqli çıxıb?! İndi mən nə etməliyəm? 28 gün də karantin olar? Zəng etdiyin heç bir qurum problemi həll etmir, biri günahı digərinin üzərinə atır".

Koronavirusa görə test nəticələrinin fərqli olduğu şəxslərdən biri - Vüqar Həmidli isə deyir ki, avqustun 28-də özündə COVID-19-un əlamətlərini hiss etdiyindən yaxma nümunəsinin götürülməsi üçün "Baku Medical Plaza" özəl klinikasına müraciət edib. Buradan laborator müayinənin nəticəsinin neqativ olduğunu açıqlayıblar. Lakin xəstəliyin əlamətləri davam etdiyindən yenidən Mərkəzi Gömrük Hospitalında analiz verib və bu dəfə isə nəticə pozitiv olub.

Vüqar Həmidli özəl klinikanın analiz nəticəsini onlara dedikləri vaxtdan gec təqdim etməsindən də narazı qalıb. O, klinikanın onlara analizin cavabını dəfələrlə zəng etdikdən sonra "votsapla" göndərdiyini söyləyir.

Ən pisi budur ki, "neqativ" nəticəyə inandığından ailənin digər iki üzvünü də koronavirusa yoluxdurub! Necə deyərlər, həm pulları gedib, həm də canları! Bəs məsuliyyəti kim daşıyır?







### TƏBİB xəstəxanalarda müalicənin pulsuz, xəstələr isə pullu olduğunu deyirlər

Pandemiyadan "faydalanma" halları yalnız dərman təminatı ilə bağlı deyil. Problem həm də virusa yoluxan şəxslərin ixtisaslaşdırılmış xəstəxanalara stasionar müalicə üçün yerləşdirilməsi ilə bağlıdır. Ötən ilin dekabrında koronavirusdan dünyasını dəyişən həmkarımız - "Azeri Defence" hərbi-texnoloji jurnalının təsisçisi və baş redaktoru Rəşad Süleymanovun da ölümünə gətirib çıxaran əsas səbəb onun xəstəxanada yer tapa bilməməsi olub. Bunu R.Süleymanovun həyat yoldaşı Zümrüd Süleymanova açıqlayıb: "Rəşadın səhhəti hər gün ağırlaşırdı. İki dəfə Rəşadı "Semaşko"ya (Kliniki Tibbi Mərkəzə) apardılar. Amma yer olmadığı üçün evə qaytardılar. O, daha sonra evdə vəfat etdi".

Təbii ki, Rəşad pandemiya dövrünün bu kimi problemlərinin güdazına gedən yeganə xəstə deyil. Xəstələr və onların yaxınlarının dediklərindən məlum olur ki, dövlət ixtisaslaşdırılmış xəstəxanalarını maliyyələşdirməsinə baxmayaraq, bu müəssisələrdə stasionar müalicəyə qəbul üçün yaxınlarının ya kimlərəsə "xahiş" üçün zənglər etməsinə, ya da rüşvət ödəməsinə ehtiyac olur. Xəstələrin müəssisələrə rüşvətlə yerləşdirilməsindən başqa, üstəlik, onların müalicələri də öz vəsaitləri hesabına aparılır.

"Yeni klinika" Publik Hüquqi Şəxsin sabiq direktoru Pərviz Abbasovun qurumun digər vəzifəli şəxsləri ilə əlbir olaraq hər bir koronavirus xəstəsinin yerləşdirilməsi əvəzində onların yaxınlarından 3000-3500 manat rüşvət tələb etməsi vəzifəli şəxslərin hazırkı şəraitdən faydalanmasını təsdiq edən faktlardan yalnız biridir.

Fövqəladə Hallar Nazirliyinin Bakının Zığ qəsəbəsində yerləşən Modul Tipli Xəstəxanasının baş həkimi İmran Ağayev və digər vəzifəli şəxslərin də koronavirus xəstələrinin həmin tibb müəssisəsində yerləşdirilməsi, eləcə də müalicə alan xəstələrin daha yüksək səviyyəli tibbi təminatla təchiz edilmələri əvəzində müxtəlif məbləğlərdə rüşvət alması da öz təsdiqini tapan faktlardandır.

Xəstələrin tibb müəssisələrinə stasionar müalicə üçün rüşvətlə yerləşdirilməsi ilə bağlı iddiaları qəbul etməyən TƏBİB isə sorğumuza verdiyi cavabında bildirir ki, virusa yoluxmuş şəxslərin stasionar müalicəsi dövlət xəstəxanalarında heç bir ödəniş olmadan həyata keçirilir. Vətəndaşdan rüşvət alınması ilə bağlı fakta əsaslanan şikayət daxil olduqda bu hal onlar tərəfindən araşdırılır. Eyni zamanda hüquq mühafizə orqanları tərəfindən qanunla müəyyən olunmuş cəzalar tətbiq edilir.

Təki TƏBİB söyləyən kimi olaydı. Amma gördüklərimiz, eşitdiklərimiz, bəzən isə yaşadıqlarımız tam əksini deyir axı...

### "İkili idarəetmə qaldıqca bu problemlər davam edəcək"

Milli Məclisin deputatı Fazil Mustafa deyir ki, müalicənin pandemiya xəstəxanalarında vətəndaşın öz hesabına olması işin düzgün qurulmamasının nəticəsidir: "Bu sahədə həqiqətən böyük problem var. Müalicə vətəndaşın öz boynuna qoyulur. Hazırkı şəraitdə vətəndaşı sıxıntıya salacaq addımlar atmaqdan yayınmaq vacibdir. Bir çox hallarda təsadüfi adamlar da xəstələr üçün reseptlər yazaraq vətəndaşdan müəyyən qədər vəsait ödənilməsini tələb edirlər. Bu halda da insanlar bilmədən yanlış müalicənin qurbanına çevrilirlər. Bütün bunlar səhiyyə sisteminin arzuolunan formada təşkil olunmamasının bir göstəricisidir. Türkiyədə adam xəstələnirsə, evində oturur, yeməyi də evinə göndərirlər. Bəs necə olur ki, Azərbaycanın əhalisi daha az olsa da və yoluxma o qədər böyük kütləni əhatə etməsə də, biz bunu edə bilmirik?! Burada problem vətəndaşlarda, həkimlərdə deyil, səhiyyə sisteminin doğru təşkil olunmamasındadır. Əgər bu sistem düzəldilsə, məncə, problemlər aradan qalxar. Bu həm də axı Prezidentin tələbidir".

Deputatın sözlərinə görə, səhiyyə sistemində əvvəldən qalan elə problemlər var ki, onların həlli mütləq qaydada ikili idarəetmədən uzaqlaşma nəticəsində mümkün ola bilər: "İkili idarəetmə əslində müalicə işinin təşkilinə çox böyük zərbə vurur. Səlahiyyətlər ya Səhiyyə Nazirliyinə, ya da TƏBİB-ə verilməli idi. Bu iki qurum arasındakı ziddiyyətli münasibətlər böyük problemlər yaratdı, pandemiya dövründə bu nöqsanlar daha çox üzə çıxdı. Fəaliyyət yarıtmaz oldu. İkili idarəetmə qaldıqca bu problemlər davam edəcək".

Fazil Mustafa əlavə edir ki, dövlət müəssisələri tərəfindən götürülmüş testlərin nəticələrinin daha qısa zaman ərzində açıqlana bilməsi üçün alternativ mexanizmlər ortaya qoyulmalıdır: "Təcili tibbi yardımın ünvana vaxtında çatmaması, test cavablarının çox gec açıqlanması narazılıqları getdikcə daha çox artırır. İnsanların səhiyyə sisteminə inamları qırıldıqda müalicədən də yayınmağa başlayırlar, öz həyatlarını taleyin ümidinə buraxırlar. Bu da arzuolunan nəticə deyil. Çox istərdik ki, vəziyyət belə olmasın. Amma indiki şərtlər bu vəziyyətin düzəlməsinə təminat vermir. Vəziyyət düzəlmədikcə yoluxma və ölüm halları da artır. Lakin bütün bunlara görə yalnız vətəndaşı günahlandırmaq olmaz. Məsul qurumların, yüksək vəzifəli səhiyyə məmurlarının öz üzərlərinə düşən işi peşəkarcasına görməsi ölkəmizin pandemiya vəziyyətindən tez çıxmasına imkan verər".

### Səhiyyə sistemi insanların ona olan etimadını bərpa etməlidir

Pandemiya başlayandan müşahidə edilən vəziyyət, insanların şikayətlərinin məzmunu onu deməyə əsas verir ki, məsul qurumlar üzərlərinə düşən işin öhdəsindən lazımınca gələ bilmirlər. Xəstələrin böyük əksəriyyəti TƏBİB və Səhiyyə Nazirliyinin onlara laqeyd münasibətindən razı deyillər.

Bu münasibətinsə səbəbi demək olar ki, eynidir - İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 24 saat işlədiyi deyilən 1542 nömrəli "Çağrı mərkəzi"nin saatlarla zənglərə cavab verməməsi, bir çox sahə həkimlərinin xəstələrlə maraqlanmaması, götürülən yaxmanın cavabının gecikdirilməsi, eyni şəxsin verdiyi analiz nəticələrinin fərqli olması, dərmanların verilməməsi və s.

Dünya Tibbi Hüquq Assosiasiyasının (DTHA) birinci vitse-prezidenti, tibb elmləri doktoru, professor Vüqar Məmmədov hesab edir ki, xüsusilə kritik, fövqəladə dövrlərdə belə vəziyyətlərin yaranmaması üçün təşkilati işlərin gücləndirilməsi ilə yanaşı, mütləq şəkildə koordinasiya və kommunikasiya işlərinin aparılması yolu təkmilləşdirilməlidir: "Səhiyyənin məsul rəhbər şəxsləri KİV vasitəsilə insanlara yol göstərməli, doğru idarəetmə ilə bağlı maarifləndirici çıxışlar etməlidirlər. Onlar sosial şəbəkələrdə neqativ ictimai rəyin formalaşmasına yol verməməlidirlər. Şəxsi davranışları, nümunələri ilə cəmiyyətin, vətəndaşın etibarını qazanmalı, insanların həqiqətən qulluğunda durmalıdırlar. Onlar tribuna arxasından yuxarıdan aşağı soyuq sifətlərlə tapşırıqlar verməli deyillər. Türkiyənin səhiyyə naziri Fahrettin Koca pandemiya ilə əlaqədar gecə-gündüz kanalların efirindən düşmür. İnsanlara slaydlarla, şəkillərlə vəziyyəti izah edir, onların yanında olmağa çalışır. Tək Türkiyədə deyil, Azərbaycanda da vətəndaşlarımız onun dediklərinə bizim səhiyyə məmurlarının dediyindən daha çox inanırlar. İnsanların inamını qazanmaq lazımdır".

### Analiz nəticələrinə kütləvi inamsızlıq

Vüqar Məmmədov pandemiya dövründə vətəndaşların təkrar analiz vermə hallarının xeyli artdığını da nəzərə çatdırdı. Dedi ki, müxtəlif laboratoriyaların Azərbaycanda eyni pasiyentə verdikləri analiz nəticələrinin fərqli olması halları əvvəllər də baş verdiyi üçün bu problemin tək pandemiya şəraitində ortaya çıxdığını söyləmək doğru olmaz: "Ümumiyyətlə, vətəndaş niyə eyni analizə görə müxtəlif laboratoriyalara müraciət etməlidir? Bunu normal hal hesab etmək olarmı? Bu halın özü səhiyyə məmurlarımız üçün bir siqnal olmalıdır, məsələyə geniş baxılmalıdır".

Vüqar Məmmədov hesab edir ki, bu gün insanlarımızın səhiyyəyə inamı çox azalıb: "Digər klinikalara təkrar müraciətlərin sayının çoxalması ilkin laboratoriyalarda analizin keyfiyyətsiz olmasının göstəricisi olmaqla yanaşı, vətəndaşın səhiyyəyə olan inamsızlığının artmasının göstəricisidir. Səhiyyə qurumları işlərini elə qurmalıdırlar ki, insanlar təkrar analiz verməyə lüzum görməsinlər, səhiyyə sisteminə, onun keyfiyyətinə inansınlar. Səhiyyəyə inamın itməsi dövlətin sosial siyasəti üçün təhlükədir. Ölkədə özəl sektor da daxil olmaqla, səhiyyə sistemində işin doğru qurulmasına və xidmətlərin keyfiyyətinə nəzarətin təmin edilməsini dövlət özü həyata keçirməlidir".

Ekspertin fikrincə, vətəndaşın dövlətin bu güçünə inamı sarsılmaz olmalıdır. Buna görə də vətəndaşın "analizin cavabları niyə fərqlənir" sualına səhiyyəyə rəhbərlik edən qurumlar konkret cavab verməlidirlər: "Bu kimi sualları cavablandırmaq üçün heç olmasa hansısa bir vahid "pəncərə", "qaynar xətt" olmalıdır, cəmiyyətlə birbaşa asan işləyən kommunikasiya yaradılmalıdır. Vətəndaş bu "pəncərə"ni döyərək ödədiyi məbləğin əvəzində doğru cavab almaq hüququnu tələb etməli, onu maraqlandıran suallara cavab tapmalıdır. Dediyimiz bu "pəncərə" bu gün haradadır? Bunu bilən yoxdur. Deyəcəklər ki, "Qaynar xətt"imiz var. Lakin "Qaynar xətt" nömrələri səmərəsizdir, ora zəng edən insanlarımızı çox incidirlər. Pandemiya zamanı dəfələrlə özümüz də müraciət etmişik, cavab ala bilməmişik, alsaq da, müraciət qeyd olunur, sonradan heç bir geri dönüş olmur. Müraciətin elə bil quyuya düşür. Yuxarılarda oturan məmurlar isə yenə də eyni sözü - "Qaynar xətt"imizə zəng vurun" deməklə cəmiyyətin hörmətini, inamını itirirlər. Çünki aydın olur ki, səhiyyə sistemində "yuxarı"ların aşağıda baş verənlərdən ya xəbəri yoxdur, ya da ümumiyyətlə, əhalinin problemləri onlar üçün maraqsızdır. Səhiyyə kommunikasiyası ayrıca bir elmdir, bunu öyrənmək lazımdır".

### Problem sıravi həkimdədir, yoxsa onların rəhbərlərində?

Səhiyyə üzrə ekspert, həkim Aydın Əliyev bildirir ki, dövlət tərəfindən pandemiya ilə mübarizə üçün yetərincə maliyyə vəsaiti ayrılıb. Lakin yüksək vəzifəli tibb məmurları dövlət tərəfindən ayrılan vəsaiti lazımi qaydada istifadə etmirlər. Ekspert bu fikirdədir ki, Azərbaycanda koronavirusla mübarizədə yüksək vəzifəli tibb məmurları neqativ hallara yol verirlər: "Mənim tanışlarımdan biri Bakı Sağlamlıq Mərkəzində koronavirusdan müalicə edilib. Həmin adam orada müalicəsinə 4700 manat xərcləndiyini deyir. Görünür ki, COVID xəstəxanalarında xəstələrə lazımi dərman preparatları yetərincə verilmir. Dövlətin dərmanların, avadanlıqların alınması üçün ayırdığı pullar bəzən bu məqsəd üçün sərf edilmir. Digər tərəfdən, Prezident İlham Əliyev pandemiya ilə mübarizədə iştirak edən tibb işçilərinə aylıq vəzifə maaşlarının 3-5 misli miqdarında müddətli əlavənin verilməsi ilə bağlı sərəncam imzalayıb. Ancaq tibb işçiləri həmin vəsaitin ondabirini ya alır, ya da almırlar. Tibb işçisinin hər hansı motivasiyası olmadıqda, dövlət başçısının ayırdığı vəsait gəlib çatmayanda onda bir etinasızlıq yaranır. Belə çıxır ki, yuxarı vəzifəli tibb məmurları siravi tibb işçilərini vətəndaşlarla üz-üzə qoyurlar. Vətəndaş təcili tibbi yardım çağırır, amma kiyayət qədər maşın, personal olmadığı üçün təcili yardım briqadası vaxtında ünvana gələ bilmir. İnsanlar belə vəziyyət yarandıqda bunun günahını siravi həkimdə görürlər. Əslində isə, günah yuxarıdakı bəzi məmurlardadır".

Aydın Əliyev deyir ki, dövlət müəssisələrində yaxma nümunəsi verən insanların analizlərinin cavabı açıqlanana qədər xəstə ya sağalır, ya vəziyyəti ağırlaşır, ya da dünyasını dəyişir: "Xəstə sağalandan sonra ona bildiriş gəlir ki, siz 14 gün müddətində evdən çıxmayın. Bu, test götürən insanların deyil, işi təşkil edən yüksək məmurların səhvidir. Dövlətin ayırdığı pulla yetərincə laboratoriya avadanlıqları alınsaydı, laboratoriyalar üçün kifayət qədər işçi ayrılsaydı, bu problemlər olmazdı. Necə olur ki, özəl sektorda verilən analizin cavabı 2-3 saata bilinir, dövlət xəstəxanalarında isə bu cavab 5-6 günə açıqlanır?!"

### "Bəzi məmurlar pandemiyadan sui-istifadə etdilər"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov deyir ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan dövləti pandemiyanın yaratdığı iqtisadi geriləmənin öhdəsindən gələ bildi. Amma bəzi məmurlar pandemiyadan sui-istifadə etdilər. Vahid Əhmədov qeyd edir ki, pandemiya şəraitində insanların ən çox üz tutduğu dərman bazarında da vəziyyət çox acınacaqlıdır. Deputat koronavirusun müalicəsi üçün lazım olan dərmanların qiymətlərinin yüksəkliyi, ümumən dərman bazarı ilə bağlı onlara çox sayda şikayətlərin edildiyini söyləyir.

Bəzi dərmanların qiymətinin təsəvvür edilməyəcək qədər baha olduğunu açıqlayan V.Əhmədov əlavə edir ki, Türkiyə ilə Azərbaycandakı dərmanların qiymətləri arasında 4-5 dəfə fərq var. Vergi, gömrük xərcləri nəzərə alındıqdan sonra da dərmanların qiymətləri arasında bu qədər fərqin olması real deyil: "Azərbaycan özü dərman istehsalına başlasa da, istehsalın həcmi kifayət qədər deyil. Buna görə Azərbaycan dərmanları daha çox xaricdən idxal edir. Ölkəmizdə dərmanlarla bağlı acınacaqlı vəziyyət var, bu sahədə faktiki olaraq monopoliyadır. İqtisadiyyat Nazirliyi bu sahəyə nəzarət üçün işlər aparır, monitorinqlər həyata keçirir. Amma monopolist şirkətlər yenə də vəziyyətdən istifadə edərək dərmanları yüksək qiymətlə satırlar. Koronavirusdan öz mənfəətləri üçün kifayət qədər istifadə edən insanlar, məmurlar oldu".

Vahid Əhmədov açıqlayır ki, koronavirusa görə testin edilməsi xidmətindən də kifayət qədər vəsait əldə edənlər var. İqtisadçı deputatın sözlərinə görə, özəl klinikalarda koronavirusun aşkarlanması üçün edilən analizlərin qiymətlərində ciddi fərqlər mövcuddur. Bir koronavirus testinin edilməsi maksimum 10-15 manata başa gələ bildiyi halda, bir klinikada bunu 40-45, digər klinikada 95 manata edirlər: "Kim hansı qiyməti istəyirsə, o qiyməti də tətbiq edir. İnsanlar yüksək qiymətə də olsa, bu testi etməyə və dərmanları almağa məcburdular, çünki sağlamlıqdan vacib heç nə yoxdur. Ancaq bundan həmin şəxslər sui-istifadə etməməlidirlər".

V.Əhmədov hesab edir ki, bu sahəyə nəzarət mexanizmi çox zəifdir. Onun fikrincə, klinika rəhbərləri pandemiya şəraitində analizlərin edilməsinə olan ehtiyacların artdığını nəzərə alaraq hər kəs üçün əlçatan qiymətlər müəyyən etməlidirlər.

Deputat hesab edir ki, bir tərəfdən dövlət pandemiyaya görə iş yerlərini itirən insanlara, pandemiyadan zərərçəkən sahibkarlara yardım edir, digər tərəfdən qiymət siyasətində ciddi problemlə üzləşir. Buna görə də pandemiyanın müvəqqəti vəziyyət olduğu nəzərə alınaraq, koronavirusla bağlı xidmətlərin qiymətləri dövlət tərəfindən tənzimlənməlidir.

### "Əlçatan qiymətlər və xidmətlər üzərində düşünmək lazımdır"

Deputat Fazil Mustafa da hesab edir ki, dövlət koronavirus testlərinin qiymətinə müdaxilə etməlidir: "İndi adi dövr deyi, pandemiyadır. Virusa yoluxmuş hər bir şəxs başqalarının həyatı üçün risk yaradır. Buna görə də əlçatan qiymətlər və əlçatan xidmətlər üzərində düşünmək lazımdır. Məsələyə "özəl müəssisə olduğum üçün istədiyim qiyməti qoya bilərəm" formasında yanaşmaq olmaz. Optimal qiymətlər olmalıdır ki, vətəndaş müayinə oluna bilsin və qiymətlərə görə bu müayinələrdən çəkinməsin. Çox insan bu imkansızlığa görə müayinə olunmur və başqalarını xəstəliyə yoluxdurur. Bunun da nəticəsi ortadadır".

F.Mustafa koronavirusa görə analiz nəticələrinin fərqli olması məsələsinə də toxunaraq bildirir ki, bunun səbəbi ya işi təşkil edənlərin məsuliyyətsizliyi, ya da texniki problemlərdir: "Hesab edirəm ki, bu kimi məsələlərdə daha sistemli bir yanaşma olmaldır. Çünki bu, vətəndaşın həyatı ilə bağlıdır, hər hansı səhv nəticə insan həyatında əhəmiyyətli dəyişiklik, çox böyük problem yarada bilər. Buna görə də aidiyyəti qurumların bu və digər məsələlərə daha həssas və sistemli yanaşmasına ehtiyac var".

Lakin əfsuslar olsun ki, əlaqədar qurumlar və onların rəhbərləri hazırkı mərhələnin həssas bir dövr olduğunu, hər bir səhvin, diqqətsizliyin, laqeydliyin insan həyatı üçün böyük problemlər yarada biləcəyini yetərincə başa düşmürlər. Əks halda nə ölkədə yuxarıda sadalanan problemlər, nə də bu problemlərə görə haqlı vətəndaş narazılığı olardı.

Bu narazılıqların aradan qaldırılmasının yeganə yolu isə səhiyyə sistemindəki hər bir məmurun öhdəsinə düşən işin mahiyyətini dərk etməsi və yaranan problemləri həll etməsidir. Prezident İlham Əliyevin dövlət məmurlarından əsas tələblərinə əməl olunsa, əlbəttə ki, ortaya da bu qədər problem çıxmaz və qeyd etdiyimiz kimi, bu acı mənzərə yaranmaz.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*




XVI Tokio Yay Paralimpiya Oyunları

# Paralimpiyaçılarımızın möhtəşəm qələbəsi

## Azərbaycan medalların sayına görə ilk 10-luqda yer aldı



Azərbaycan paralimpiyaçıları Yaponiyanın paytaxtı Tokioda keçirilmiş XVI Paralimpiya Oyunlarını möhtəşəm qələbə ilə başa vurdular. Yığmamız gərgin keçən yarışlarda 19 medal qazanaraq medal almış 84 ölkə sırasında 10-cu oldu. Onlardan 14-ü qızıl, 1-i gümüş, 4-ü isə bürünc medaldır. Bu, tarixi rekorddur.

Millimizin heyətində paracüdoçular Şəhanə Hacıyeva (48 kiloqram), Sevda Vəliyeva (52 kiloqram), Xanım Hüseynova (63 kiloqram), Vüqar Şirinli (60 kiloqram), Hüseyn Rəhimli (81 kiloqram), Dürsədəf Kərimova (+70 kiloqram) qızıl, Namiq Abaslı (66 kiloqram) və İlham Zəkiyev (+100 kiloqram) bürünc medala sahib oldular. 100 metr məsafəyə arxası üstə, habelə sərbəst və batterflyay üsulla üzgüçülük yarışlarında Roman Saley finişə birinci çataraq üçqat Paralimpiya çempionu adını qazandı. Digər üzgüçümüz Vəli İsrafilov isə 100 metr məsafəyə brass üsulu ilə yarışda birinci oldu.

Nizəatma yarışında dünya rekordu (51,42 m) müəyyənləşdirən paraatletimiz Həmid Heydəri də fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Elvin Astanov nüvəitələmə yarışında birinci (8,77m), Səid Nəcəfzadə isə uzunluğa tullanmada üçüncü yeri tutdular. Paraatlet Lamiyə Vəliyeva 100 metr məsafəyə qaçışda gümüş medal qazandı. O, 400 metr məsafəyə qaçışda isə bütün rəqiblərini qabaqlamağı bacardı. Məsafəni 55 saniyəyə qət edən təmsilçimiz həmçinin Paralimpiya rekordu müəyyənləşdirdi. Pauerliftinqçi Pərvin Məmmədov (49 kiloqram) fəxri kürsünün üçüncü pilləsinə qalxdıqdan sonra Azərbaycana 14-cü qızıl medalı Orxan Aslanov qazandırdı. Uzunluğa tullanma yarışında mübarizə aparan paralimpiyaçımız 7,36 metrlik nəticə göstərdi.

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov: "Bu, idmançılarımız üçün tarixi bir paralimpiada idi. Biz Tokioda Azərbaycan idmanının, paralimpiyaçılarımızın gücünü göstərdik, tarixi qələbə qazandıq. Bu, Azərbaycanın 25 illik paralimpiya tarixində ən uğurlu Paralimpiya Oyunları oldu. Planetin ən güclü idmançılarının yarışdığı turnirdə gərgin idman mübarizəsinin şahidi olduq. Azərbaycanda da Tokiodan medal xəbəri eşitmək ümidi ilə yarışlar böyük həyəcanla izlənildi".

Qeyd edək ki, cüdo yarışında Azərbaycan yığması 6 qızıl medal qazanaraq komanda hesabında birinci yerdə qərarlaşdı. Cüdonun yarandığı, onun ana vətəni sayılan Yaponiyada bizim idmançılar bütün rəqiblər üzərində qələbə qazandılar. İ.Rəhimovun dediyinə görə, bu barədə bütün Yaponiya mətbuatı yazır, yapon ictimaiyyəti danışır. Bu münasibətlə mən idmançılarımızı və bütün xalqımızı təbrik edirəm. Bir daha bütün idmançılarımızın adından Prezident İlham Əliyevə təşəkkür edirəm. Həm dövlət başçısı, həm də Mehriban xanım Əliyeva hər gün bizim idmançılarımızın çıxışlarını izləyirdilər, onların hər bir uğuruna bizimlə birlikdə sevinirdilər, təbriklərini göndərirdilər. Bu, əlavə olaraq bizim üzərimizə böyük məsuliyyət qoyurdu, idmançılarımızı daha da ruhlandırırdı. Bu qayğıkeşliyə, diqqətə görə biz cənab Prezidentə, Mehriban xanıma təşəkkür edirik. Şadıq ki, onların bizə göstərdiyi böyük etimadı doğrulda bildik. Çox şadıq ki, biz Vətənə böyük qələbə ilə dönürük. Şadıq ki, biz Azərbaycan idman tarixində böyük bir səhifə yazdıq və sübut etdik ki, Azərbaycan idmanı çox güclüdür. Azərbaycan çox güclü dövlətdir. İstənilən səviyyəli yarışlarda bizim idmançılar ön sıralarda gedə bilərlər və gedirlər".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyinin rəhbərliyi "Üç qardaş - 2021" təliminə hazırlıq işləri ilə tanış olub



Sentyabrın 6-da Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan, Türkiyə və Pakistan xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçiriləcək "Üç qardaş - 2021" beynəlxalq təliminin keçiriləcəyi ərazi ilə tanış olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə nazirinə təlimə hazırlıq prosesi və digər təşkilati məsələlərlə bağlı məruzə edilib.

Təlimin yüksək səviyyədə təşkili və keçirilməsi üçün müvafiq göstərişlər verilib.

# "Dəniz kuboku" müsabiqəsində iştirak edən Azərbaycanın hərbi dənizçiləri Bakıya qayıdıb

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində "Dəniz kuboku" müsabiqəsində iştirak edən Azərbaycan Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları Bakıya qayıdıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 6-da Azərbaycan hərbi dənizçilərinin qarşılanma mərasimi keçirilib.

Qeyd edək ki, müsabiqəyə Hərbi Dəniz Qüvvələrinin G-122 və G-124 gözətçi gəmiləri ilə qatılan komandamız üçüncü yerə layiq görülüb.



# Laçın rayonunda Azərbaycan-Türkiyə birgə təlimi başlayıb





Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Laçın rayonunda birgə döyüş atışlı taktiki təlim başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən təlimdə əsas məqsəd döyüş əməliyyatlarının aparılması zamanı qarşılıqlı fəaliyyətin və döyüş uzlaşmasının təkmilləşdirilməsinə, o cümlədən komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib.

Təlimdə müasir döyüş texnikası və digər hərbi vasitələrin çətin relyef şəraitində istifadə etmə vərdişlərinin artırılmasına xüsusi diqqət yetirilib.

# Naxçıvanda "Marş İrəli" layihəsi start götürüb

Ölkə gənclərində vətənpərvərlik ruhunun yüksəldilməsi, fiziki dözümlülüyün artırılması, rəqabətədavamlı və sağlam gəncliyin inkişafına xidmət edən "Marş İrəli" adlı hərbi simulyasiyalı layihənin 4-cü mövsümünə Naxçıvan evsahibliyi edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Heydər Əliyev adına Hərbi Liseydə təşkil olunan açılış mərasimi ilə layihəyə start verilib. Mərasimdə Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Dövlət Himnimiz ifa olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev "Marş İrəli" layihəsinin qədim diyarımızda gerçəkləşən uğurlu tədbirlərdən biri olacağına inamlarını ifadə ediblər. Açılış




mərasiminin ardınca iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüb, Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Daha sonra Şəhidlər xiyabanı və Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət olunub, Azərbaycanın azadlığı və suverenliyi uğrunda həlak olan soydaşlarımızın ruhuna dualar oxunub. Nahar fasiləsindən sonra iştirakçılar Əcəmi Seyrangahında olub, Ümummilli Liderin burada ucaldılmış büstü ziyarət olunub, ardınca Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksi, həmçinin Xan Sarayı Dövlət Tarix-Memarlıq Muzeyi ilə tanış olublar. Axşam saatlarında tədbirin açılış konserti reallaşıb.

Sentyabrın 5-dən 9-dək davam edəcək layihənin gündəlik proqramı tərtib olunub, düşərgə üçün əlverişli məkan seçilib. "Marş İrəli"nin konseptinə uyğun olaraq gender bərabərliyi qorunmaqla 17-25 yaş aralığında, həqiqi hərbi xidmət keçməmiş 100 gənc düşərgədə iştirak haqqı qazanıb. Onlardan 70-i Naxçıvan gəncləridir.

Layihə Əlahiddə Ümumqoşun Ordunun dəstəyi, Azərbaycan Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilir.

# "SOCAR PETROLEUM" Ağdam şəhərində yeni modul tipli YDM istifadəyə verib

Böyük zəfərin ardından işğaldan azad edilmiş, bənzəri olmayan dilbər guşələrimiz tez bir zamanda əvvəlki görkəminə qaytarılır. Bu məqsədlə Qarabağ bölgəsində fasiləsiz quruculuq işləri həyata keçirilir. Bu quruculuq işləri dövründə nəqliyyat vasitələrinin fasiləsiz yanacaqla təmin edilməsi məqsədilə "SOCAR PETROLEUM" QSC Ağdam şəhərində, inşası hazırda davam edən yeni yolun üzərində "SOCAR" brendli modul tipli yeni yanacaqdoldurma məntəqəsi (YDM) istifadəyə verdi. Beləliklə, "SOCAR" brendi ilə fəaliyyət göstərən YDM-lərin sayı 40-a çatdırıldı.




Yeni istifadəyə verilmiş modul tipli məntəqədə 2 yanacaqpaylayıcı kalonka quraşdırılmışdır. Beləliklə, bu yanacaqdoldurma məntəqəsində "A-92" markalı benzin və "Dizel" tipli yanacaq məhsullarının satışı həyata keçiriləcəkdir. Bununla da 2 kiçik və iritutumlu avtonəqliyyat vasitələrinin yanacaqla təmin edilməsi üçün şərait yaradılıb.

Qeyd edək ki, "SOCAR PETROLEUM" QSC 40 yanacaqdoldurma məntəqəsi və 11 neft terminalından ibarət neft məhsullarının topdan satışı şəbəkəsinə sahibdir. Sıxılmış təbii qazın (CNG) mühərrik yanacağı kimi tətbiq olunmasında lider olan "SOCAR PETROLEUM" QSC-nin bu tip yanacağın istehsalı və satışı üçün terminalı fəaliyyət göstərir. "SOCAR PETROLEUM" QSC-nin fəaliyyətinin prioritet istiqamətləri təhlükəsizlik, yanacaq satışının dəqiqliyi və xidmət rahatlığına xüsusi diqqət yetirərək müştərilərin ehtiyaclarını təmin etməkdir.

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən "LDU-nun 2 saylı tədris korpusunun bina və yeməkxana sahəsinin qazlaşdırılmasından ötrü, qaz təchizatı üçün Texniki Şərtin dəyişdirilməsi ilə əlaqədar layihə smeta sənədlərinin işlənməsi işləri"nin satın alınması məqsədilə 29 aprel 2021-ci il tarixli tender.gov.az saytında dərc olunan kotirovka sorğusu prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 16 may 2021-ci il tarixli yekun protokoluna əsasən "AZ-ERA GROUP" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla muvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən "Atributların və mükafatlandırma nişanlarının hazırlanması" işlərinin satın alınması məqsədilə 18 may 2021-ci il tarixli tender.gov.az saytında dərc olunan kotirovka sorğusu prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 24 may 2021-ci il tarixli yekun protokoluna əsasən "MASAD" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin cari və əsaslı təmiri işlərinin satın alınması üçün *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) **etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 250 (iki yüz əlli) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri 24 sentyabr 2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini isə 04 oktyabr 2021-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri 05 oktyabr 2021-ci il saat 11:00-da açılacaqdır.

İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Ağstafada bu il məktəbə gedəcək şəhid balaları ilə görüş keçirilmişdir




Yeni dərs ili ərəfəsində Ağstafa Rayon İcra Hakimiyyətində şəhid olmuş Rüfət Məmmədli, Emin Əmrahov və Ramiz Mustafayevin ailə üzvləri ilə görüş keçirilmiş, onların arzu və istəkləri dinlənilmişdir.

Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov şəhidlərin bu il birinci sinfə gedəcək balalarını orta məktəbə qədəm qoymaları münasibətilə təbrik edərək onlara məktəbli çantaları və ləvazimatları hədiyyə etmişdir. Görüşdə vurğulanmışdır ki, bütün şəhid övladları bizim üçün müqəddəs əmanətdir və onların qayğısız böyümələri, firavan həyat sürmələri üçün dövlət bütün zəruri tədbirləri görür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Daha bir şəhid adına bulaq açılıb




Lənkəran şəhərində şəhid baş leytenant Abdullazadə Həsənağa Şakir oğlunun adına bulağın açılışı olub.

Yüksək ixtisaslı hərbçi olmaq arzusu ilə əvvəlcə Naxçıvanski adına hərbi liseyi, sonra Heydər Əliyev adına Ali Hərbi Akademiyanı bitirən H.Abdullazadə Milli Ordu sıralarında ləyaqətlə xidmət edərək taqım komandiri, bölük komandiri və tabor qərargahının rəisi vəzifələrinə qədər yüksəlib.

Qəlbi vətən məhəbbəti ilə döyünən zabit Vətən müharibəsi günlərində Kəlbəcər, Murov və Ağdərə istiqamətində gedən döyüşlərdə misilsiz qəhrəmanlıq nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalıb. Bakıda II Fəxri xiyabanda dəfn edilən şəhid zabit Prezidentin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunması uğrunda" medalları və "Rəşadət" ordeni ilə təltif olunub.

Açılış mərasimində Lənkəran ŞİH başçısı Taleh Qaraşov, Milli Məclisin deputatı Rüfət Quliyev, Müdafiə Nazirliyinin nümayəndəsi, polkovnik-leytenant Rüfət Məmmədov, hüquq mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxış edənlər 44 günlük Vətən müharibəsində silahlı qüvvələrimizin əsgər və zabitlərinin Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə misilsiz şücaət göstərdiklərini söyləyiblər. Qeyd olunub ki, şəhid və qazilərin Vətən qarşısında xidmətləri dövlət və xalqımız tərəfindən yüksək dəyərləndirilir, o cümlədən lənkəranlılar torpaqlarımızın azad olunmasında övladlarının, qardaşlarının, atalarının, doğmalarının göstərdikləri əvəzsiz xidmətləri ilə qürur duyurlar.

***S.CAVADOV,***
***"Azərbaycan"***

# Dövlət qəhrəmanlarının yanında, qəhrəmanlar dövlətin arxasındadır

Ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial-məişət problemlərinə həssas münasibət və qayğıkeşlik dövlət siyasətinin əsas istiqamətlərindəndir. Birbaşa Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın nəzarətində və diqqət mərkəzində olan həmin məsələlər operativ və yüksək səviyyədə həll olunur.

Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin ailə üzvlərinin, qazilərimizin sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Dünyada pandemiyanın davam etməsi və iqtisadi-maliyyə çətinliklərinin olmasına baxmayaraq, ölkəmizdə bu yöndə işlər nəinki səngiyir, hətta gündən-günə sürətlənir. Bir neçə fakt: indiyədək dövlət dəstəyi ilə 7200 müharibə əlili avtomobil almış, 1997-2021-ci illərdə şəhid ailələrinin üzvlərinə 10 min 500 mənzil və fərdi ev təqdim olunmuşdur. Sonuncu dəfə isə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə şəhid ailələrinə, müharibə əlillərinə və Vətən Müharibəsi Qəhrəmanlarına 300 mənzil, həmçinin 50 avtomobil verilmişdir. Avqustun 25-də Prezident İlham Əliyevin "Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" imzaladığı sərəncam da bu prosesin davamlı xarakter aldığını göstərir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi şanlı qələbəmizlə başa çatdı. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, düşmənə layiq olduğu yeri göstərdi. Bu qələbəni, zəfəri bizlərə yaşadan məhz yenilməz sərkərdə, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun gücü, əsgər və zabitlərimizin qəhrəmanlığı olmuşdur. Bu baxımdan Prezidentin imzaladığı sözügedən sərəncam müstəsna əhəmiyyət kəsb edir.

Dövlət başçısı avqustun 26-da Abşeron rayonunda şəhid ailələri, müharibə əlilləri və Vətən Müharibəsi Qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində çıxış edərək bildirmişdir ki, müharibədən sonra 9 mindən çox insana sosial ödənişlər verilib. Orta hesabla hər insana 2 ödəniş edilib. Yaralı və sağlamlığını itirmiş hərbçilər ən müasir protezlərlə təmin edilir: "Mənə verilən məlumata görə, 180 nəfərdən çox insanın protezə ehtiyacı var, onlardan 140 nəfəri artıq protezlərlə təmin edilib və bu protezlər onları normal həyata qaytarır. Onlar normal gəzə, qaça, hətta futbol oynaya da bilərlər. Bu da siyasətimizin tərkib hissəsidir".

Görüş zamanı Prezident önəmli mesajlar da vermişdir: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi qürurla yaşayacağıq. İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq. Azərbaycan xalqının çoxəsrlik tarixində buna oxşar parlaq və tam Qələbə olmayıb. 300-dən çox şəhər, kənd, qəsəbə döyüş meydanında işğalçılardan təmizlənib. Gözəl məkanlarımız yenidən dirçəlir. Çox keçməyəcək ki, Qarabağ və Şərqi Zəngəzur cənnətə çevriləcək və bu işlər Azərbaycanın öz vəsaiti hesabına icra olunacaq".

Ali Baş Komandan mövcud vəziyyəti ətraflı şərh edərək bundan sonrakı addımlarımızla bağlı bir çox məsələlərə də aydınlıq gətirmişdir. Dövlət başçısı çıxışında bir daha tarixə nəzər salmış, ermənilərin məkrli addımlarına toxunmuş, eyni zamanda Ermənistana və onların havadarlarına önəmli mesajlar vermişdir. Ermənistan isə bu mesajlardan ciddi nəticə çıxarmalıdır, əks halda dövlət başçısının qeyd etdiyi kimi, "dəmir yumruq" yerindədir!

***Sübhan QULİYEV,***
***"Sumqayıt" qəzetinin baş redaktoru***

# AFFA futbol üzrə milli komandanın oyunlarından əldə olunacaq gəlirin bir qismini Qarabağ Dirçəliş Fonduna ianə edəcək

Sentyabrın 7-də saat 20:00-da Bakı Olimpiya Stadionunda başlanacaq Azərbaycan-Portuqaliya oyununun bilet satışından əldə olunacaq gəlirin 10 faizi Qarabağ Dirçəliş Fonduna ianə ediləcək.

QDF QARABAĞ DİRÇƏLİŞ FONDU

AFFA

Fondun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) və Qarabağ Dirçəliş Fondu arasında əldə olunmuş razılığa əsasən, Azərbaycan-Portuqaliya oyunundan başlayaraq, 2022-ci ildə Qətərdə keçiriləcək dünya çempionatının seçmə mərhələsi çərçivəsində milli komandamızın bütün ev oyunlarında bilet satışından əldə ediləcək gəlirin 10 faizi Qarabağ Dirçəliş Fonduna ianə olunacaq. İanə olunan məbləğ işğaldan azad edilən ərazilərdə futbol infrastrukturunun bərpası və inkişafı kimi məqsədlərə sərf olunacaq.

Azərbaycan-Portuqaliya oyununa biletləri "iTicket.Az" veb-saytı, mobil tətbiqi və ya "Gənclik Mall" və "28 Mall"da yerləşən "iTicket" bilet satışı məntəqələrindən əldə etmək mümkündür.

Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar qarşılaşmaya stadionun azarkeş tutumunun 50 faizi qədər azarkeş buraxılacaq. Yaxın günlərdə AFFA ilə Qarabağ Dirçəliş Fondu arasında qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək məqsədilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə yaradılan, əsas vəzifəsi işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması, inkişaf etmiş, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə dəstəyin göstərilməsi olan Qarabağ Dirçəliş Fondu bu mühüm işlərə qoşulmaq istəyən bütün vətəndaşlarımız üçün vahid və əlçatan platformadır.

# Lənkəranda daha bir bulaq şəhid adını daşıyır





Lənkəranda şəhid ailələrinin adlarının əbədiləşdirilməsi istiqamətində ardıcıl işlər aparılır. Küçələrə şəhidlərin adları verilir, xatirə guşələri yaradılır, şəhid bulaqları açılır.




Bu günlər Girdəni kəndi ərazisində şəhid Emil Vaqif oğlu Qurbanovun adına tikilmiş bulağın açılışı olub. Açılış mərasimində rayon rəhbərliyi, hüquq mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələri, şəhid ailə üzvləri və qazilər iştirak ediblər.

Mərasimdə çıxış edənlər bildiriblər ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, ordumuzun qəhrəmanlığı, xalqın birliyi hesabına qazanılan Zəfər sayəsində torpaqlarımız uzunmüddətli düşmən işğalından azad olunub, beynəlxalq aləmdə ölkəmizin nüfuzu yüksəlib.

Bütün bunlara, əlbəttə, şəhid və qazilərimizin qanı ilə nail olmuşuq. Onlar əsl qəhrəmanlardır. Şəhid Emil Qurbanov da bu qəhrəmanlardan biridir. O, ehtiyatdakı zabit olub. Ailəli olmasına baxmayaraq, çağırış məntəqəsinə gəlib döyüş bölgəsinə göndərilməsini xahiş edib. Əsl vətənpərvər kimi əsgər yoldaşları ilə döyüşə atılan Emil düşmənə ağır zərbələr vuraraq torpaqlarımızın azad olunmasında böyük şücaət göstərib. Emil Qurbanov qəhrəmancasına həlak olub. Onun rəşadəti gənclərə nümunədir.

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Ü.Əliyeva, şəhidin həyat yoldaşı və şəhid Vüsal Kazımovun atası, Lənkəran Dövlət Universitetinin prorektoru Kamran Kazımov çıxış edərək şəhidlərin adlarının əbədiləşdirilməsinə və şəhid ailələrinə göstərilən yüksək diqqətə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Vətən müharibəsi şəhidlərinin övladlarına tamaşa göstərilib




Vətən müharibəsi şəhidlərinin övladlarına Tovuz Rayon Mədəniyyət Mərkəzində Xalq teatrının hazırladığı tamaşa göstərilib.

Tamaşa balaca şəhid övladlarında yüksək əhvali-ruhiyyə yaradıb. Sonda şəhid övladlarına hədiyyələr təqdim olunub.

Valideyinlər onların övladlarına göstərilən diqqətə görə teatrın aktyorlarına təşəkkür etdikdən sonra balaca tamaşaçılarla aktyorlar birgə xatirə şəkli çəkdiriblər.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Türkiyəyə göndərilən daha 11 qazimiz sağalaraq Vətənə geri dönüb






Ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 11 qazimiz sağalaraq Vətənə geri dönüb.




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, onlar Qurbanov Əbülfət Tanrıverdi oğlu, Rəhimov Ziyəddin Aşur oğlu, Yusifov Alik Elşən oğlu, Novruzov Rəşad Lətif oğlu, Həmidov Mahur Mahir oğlu, Əhmədov Xəyyam Hidayət oğlu, Məmmədov Vidadi Ələkbər oğlu, Səlimzadə Tural Vasif oğlu, Atakişiyev Nəriman Qələndər oğlu, Muradov Tanrıverdi Mədəd oğlu, İsmayılov Rüfət Fəxrəddin oğludur.

Həmin qazilərin Türkiyədəki müalicə proseduru uğurla yekunlaşıb.

Onların qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 43 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir.

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.

Allah qazilərimizə şəfa versin! Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 "Çağrı Mərkəzi" fəaliyyət göstərir.

# Tarixi hadisə:

## AZAL-ın “QARABAĞ” təyyarəsi Füzuli hava limanına enib








Sentyabrın 5-də Füzuli Beynəlxalq Hava Limanında əlamətdar hadisə baş verib. Hava limanının istismara verilməsindən əvvəl Bakıdan uçan “Azərbaycan Hava Yolları”na məxsus ən böyük “Airbus A340-500” tipli sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək işğaldan azad olunmuş Qarabağın ilk hava limanında eniş icra edib.

Simvolik məqam ondan ibarətdir ki, həmin təyyarə “QARABAĞ” adını daşıyır (AZAL-ın donanmasında olan təyyarələr Azərbaycanın rayon və şəhərlərinin şərəfinə adlandırılmışdır).

Bundan əlavə, Azərbaycanın “Silk Way” aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan “Boeing 747-400” tipli hava gəmisi də Füzuli hava limanına eniş icra edib. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılmışdır.

Sərnişin təyyarəsi ilə Bakı-Füzuli marşrutu üzrə uçuş müddəti təxminən 35 dəqiqə təşkil etmişdir.

“Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tikinti işlərinə birbaşa nəzarəti sayəsində mümkün olmuşdur. Dövlət başçısının qeyd etdiyi kimi, bu hava limanı Qarabağa hava qapısı olacaq. Qeyd etmək istərdim ki, qısa müddətə baxmayaraq, Füzuli hava limanı beynəlxalq hava limanları münasibətində irəli sürülən bütün yüksək tələblərə uyğun şəkildə inşa edilmişdir”, - deyə AZAL-ın prezidenti Cahangir Əsgərov bildirmişdir.

Füzuli Beynəlxalq Hava Limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilmişdir. Uçuş-enmə zolağı, ICAO-nun bütün tələblərinə uyğun olaraq uçuşların təhlükəsizliyini təmin etmək üçün instrumental enmə və naviqasiya sistemləri, işıq texniki, ilkin və ikincil radiolakasiya sistemləri ilə tam təchiz olunmuşdur. Bu, hava limanına istənilən tip təyyarələrin qəbul edilməsinə imkan verəcəkdir. Perronun sahəsi 60 min kvadratmetr təşkil edir.

Avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi başa çatmışdır. Bunun sayəsində Füzuli hava limanına ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaqdır. Aeronaviqasiya sisteminə və işğaldan azad edilmiş ərazilər üzərindən uçuşlara tam nəzarəti təmin etmək üçün yeni beynəlxalq hava yolları tətbiq olunur.

Gələcək aerovağzal kompleksinin elektrik enerjisi ilə təmin edilməsi üçün nəzərdə tutulan əsas transformator yarımstansiyaları və elektrik ötürücü xətləri də hazırdır. Qazanxana və digər köməkçi binaların tikintisi də başa çatmışdır.

Sentyabrın sonunda istifadəyə verilməsi nəzərdə tutulan sərnişin terminalının qarşısında 150 avtomobil üçün nəzərdə tutulan dayanacaq inşa edilmişdir. Həmçinin Füzuli Beynəlxalq Hava Limanını “Zəfər yolu” və Şuşa şəhərinə aparan magistral yolla birləşdirən avtomobil yolunun tikintisi davam etdirilir. Bundan əlavə, hava limanının ərazisində yaşıllaşdırma işləri aparılır.

Qeyd edək ki, həmçinin dövlət başçısının tapşırığı ilə Laçın və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının tikintisi davam edir.

***“Azərbaycan Hava Yolları”nın Mətbuat xidməti***

---

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi
## *açıq tender elan edir*

Lənkəran, Şirvan, Şəki RQİ şöbələrinə informasiya-kommunikasiya texnologiyaları avadanlıqları, onlara dair mebel dəstlərinin və proqram təminatının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının **https://www.etender.gov.az/** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdır. Müsabiqəyə daxil olduqdan sonra “ASAN Ödəniş”lə “ödə “ düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar. Əlaqələndirici şəxs - Əvəz Məmmədzadə, tel: 012 590-81-60.

**İştirak haqqı: 1500 (bir min beş yüz) AZN**
**Təşkilat - Baş Dövlət Yol Polisi İdarəsi**
**VÖEN: 9900063851**
**H/h: AZ45CTRE00000000000002078506**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 27.09.2021-ci il saat 12:00-dək, tender təklifi ilə bank zəmanəti sənədlərini isə 05.10.2021-ci il saat 12:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 06.10.2021-ci il saat 12:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

---

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 31 avqust 2021-ci il tarixli qərarı ilə Həşimov Vasif Atamalı oğluna sığorta agenti fəaliyyətinə verilmiş 08 may 2012-ci il tarixli 000654 nömrəli lisenziya ləğv edilmişdir.

---

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti “Mühəndis Balarza Məmmədov” gəmisinə tələb olunan polad vtulka və dairələrin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 sentyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

***Tender komissiyası***

---

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti 1547 layihəli gəmilərin gövdəsindəki qaynaq birləşmələrinin radioqrafik müayinəsi xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 sentyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

***Tender komissiyası***

---

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi iş yoldaşları İradə Əliyevaya xalası

**ALİYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və kollektivi Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərova həyat yoldaşı

**ZENFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Gülnar Kazımlıya atası

**LAZIM KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi UNEC-in Maliyyə və maliyyə institutları kafedrasının dosenti

**TOFİQ HASİLOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi TRASEKA Hökumətlərarası Komissiyanın Azərbaycandakı milli katibi Rüfət Bayramova atası

**ELTON BAYRAMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin rəhbərliyi və kollektivi iş yoldaşları Humay İlyasbəyliyə atası

**BƏHMƏN NAZIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Abbas İlyasbəyliyə atası

**BƏHMƏN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılova atası, tanınmış həkim

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri, professor Şəmsəddin Hacıyev Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mahmud Məmmədov Sabir Mirələm oğlu Ağayevə həyat yoldaşı

**GÜLCAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“GünayBank” ASC-nin rəhbərliyi və kollektivi “Günay Bank” ASC-nin Müşahidə Şurası sədrinin müşaviri Sabir Ağayevə həyat yoldaşı

**GÜLCAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağstafadan Seymur Orucov Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Nadir Xasiyev, Arzu Hüseynov, Nizami Məcidov, Rabil Əliyev, Qafar Hüseynov, Cəbrayıl Mirzai, Telman Həsənov və Ləbib Ləbibov Fərhad, Fikrət və Elçin Axundovlara anaları

**EMMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərova həyat yoldaşı

**ZENFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ziyad Səmədzadə, Fikrət Əzizov və Elxan Bəşirov görkəmli ədəbiyyatşünas, Yazıçılar Birliyinin üzvü

**XEYRULLA ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ziyad Səmədzadə, Fikrət Əzizov, Elxan Bəşirov, Həsən Şirinov və Azad Əhmədov

**MAYIS BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Mühəndislik Universitetinin rəhbərliyi və kollektivi universitetin Fizika kafedrasının professoru, akademik

**ƏNVƏR NƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyasının sədri Tofiq Quliyev və federasiyanın kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru və kollektivi Gözəl Ağasəf qızı Novruzovaya qardaşı

**AĞABABA ABDULRAZAQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən “Maşın və avadanlıqların alınması” işlərinin satın alınması məqsədilə 18 may 2021-ci il il tarixli **tender.gov.az** saytında dərc olunan kotirovka sorğusu prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 24 may 2021-ci il tarixli yekun protokoluna əsasən “SIMPLEX” MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

---

***Şərur MTK tərəfindən Əflaruz Qulam oğlu Məmmədova Yeni Yasamal massivi, Əsəd Əhmədov 24 B ünvanda binanın 1538 saylı mənzili üçün verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4967
Sifariş 1643
Qiyməti 40 qəpik